RƏSMİ DÖVLƏT QƏZETİ

# AZƏRBAYCAN

AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİNİN ORQANI

№ 67 (8946) BAZAR, 3 aprel 2022-ci il | Qəzetin əsası 1918-ci ildə qoyulmuşdur | www.azerbaijan-news.az





## Qeyri-neft sənayesinin inkişafı prioritet istiqamət olaraq qalır

### İndiyədək ölkənin sənaye zonalarında 6 milyard manatlığa yaxın məhsul istehsal edilib



Azərbaycan iqtisadiyyatının əsasını neft-qaz sektorunun təşkil etməsi məlum faktdır. O da məlum faktdır ki, ölkənin əsas gəlirləri bu sahədən əldə edilən vəsait hesabına formalaşır.

Neft və qazın isə qiymətləri dünya bazarında sabit olmur. Qiymətlərin kəskin bahalaşması və ya ucuzlaşması karbohidrogen məhsullarını ixrac edən ölkələrin maliyyə sisteminə ağır zərbə vurur.

Bir mühüm faktor da odur ki, dünyada neft və qazın qiymətləri təkcə bazarın tələb və təklif qanununa görə müəyyənləşmir. Bir çox halda bu, siyasi səbəblərlə bağlı olur. Dünya birjalarını idarə edənlər qiymətləri siyasi təzyiq və ya sifariş əsasında müəyyən edirlər. Rusiya-Ukrayna hadisələrində də bunun şahidi olduq. Belə ki, hələ müharibə başlamamışdan əvvəl KİV-lər vasitəsilə müharibənin başlayacağı təbliğatını apardılar. Sanki hamı bir himə bənd idi. Dünya birjalarında neft və qazın qiyməti sürətlə yüksəlməyə başladı. Belə hal son bir neçə ildə təkrar olunub.

İkinci bir önəmli amil odur ki, dünya bazarında kataklizmlər baş verəndə ən çox ziyan çəkən ölkələr xammal ixrac edənlərdir. Əvəzində sənayesi inkişaf etmiş ölkələr dünya bazarında baş verən təlatümlərdən az ziyanla çıxırlar. Sənayenin inkişafı isə iki mühüm məsələyə görə əhəmiyyətlidir. Birincisi, sənaye ölkənin daxili tələbatının ödənilməsini təmin edir. İkincisi isə, məhsul ixrac edilməklə sabit gəlir qazanılır. Bu iki faktor ölkənin maliyyə dayanıqlığını təmin edir.

Son 11 ildə Prezident İlham Əliyev tərəfindən müəyyən edilən strategiya əsasında ölkəmizdə qeyri-neft sektorunun inkişafı istiqamətində islahatlar aparılır. Məqsəd Azərbaycanı sənaye ölkəsinə çevirməklə neft-qaz gəlirlərindən asılılığı aradan qaldırmaqdır.

Ardı 2-ci səh.

## Azərbaycan Cənubi Qafqazda İtaliyanın əsas ticarət tərəfdaşıdır



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev aprelin 2-də İtaliya Respublikasının xarici işlər və beynəlxalq əməkdaşlıq naziri Luici Di Maionun başçılıq etdiyi nümayəndə heyətini qəbul edib.

Ardı 2-ci səh

## Birinci vitse-prezident Mehriban Əliyeva Ramazan ayının başlanması münasibətilə paylaşım edib

Azərbaycanın Birinci vitse-prezidenti Mehriban Əliyeva "İnstaqram" hesabında Ramazan ayının başlanması münasibətilə paylaşım edib.




AZƏRTAC xəbər verir ki, paylaşımda deyilir: "İnsanları gözəl niyyətlər və xeyirxah əməllər naminə birliyə çağıran mübarək Ramazan ayının başlanması münasibətilə bütün Azərbaycan xalqını və dünya müsəlmanlarını səmimi-qəlbdən təbrik edirəm! Allah dualarınızı, tutduğunuz orucu qəbul etsin, bütün insanlara sağlamlıq və səadət, Vətənimizə sülh, əmin-amanlıq və xoş günlər bəxş etsin!"

## Düşmənin başını əzən «dəmir yumruq»




### Ermənistan öhdəliklərini yerinə yetirmədikcə, hərbi təxribatlara yol verdikcə onun zərbəsini hiss edəcək

10 noyabr üçtərəfli Bəyanatına əsasən, darmadağın edilmiş işğalçı ordunun qalıqları Azərbaycanın ərazilərini tərk etməli idilər. Lakin bu, baş verməyib və Rusiya sülməramlılarının müvəqqəti yerləşdiyi Azərbaycan ərazilərində qalan qanunsuz erməni silahlı dəstələri təxribatçı fəaliyyətlərini davam etdirirlər. Ermənistan Bəyanatın 6-cı maddəsini pozaraq, Laçın dəhlizi vasitəsilə hərbçilərin bölgəyə göndərilməsini davam etdirir.

Bax: səh. 6




## Böyük qayıdışa maneə yaradan yalnız minalardır

### Müharibədən sonra Qarabağ və Şərqi Zəngəzurda 23 min hektardan çox ərazi təmizlənib, 55 mindən çox mina və partlamamış hərbi sursat zərərsizləşdirilib

Bax: səh. 2



## Çörək təknəmizin boş qalmaması üçün

### Tərtər taxılçıları bütün imkanlarını səfərbər ediblər

Bax: səh. 5



## Yeni infrastruktur layihələri Azərbaycan və Çin arasında əməkdaşlığa böyük imkanlar açır

### Çin Xalq Respublikasının Sədri zati-aliləri cənab Si Cinpinə

Hörmətli cənab Sədr!

Bu il biz Azərbaycan Respublikası ilə Çin Xalq Respublikası arasında əlamətdar ildönümü - diplomatik münasibətlərin qurulmasının 30 illiyini qeyd edirik. Bu xoş hadisə ilə əlaqədar Sizi ürəkdən təbrik edir, Sizə və Sizin simanızda dost Çin xalqına ən səmimi arzularımı çatdırıram.

Qədim və zəngin dostluq ənənələrinə malik olan Azərbaycan və Çin xalqlarını hələ iki min il bundan əvvəl tarixi İpək yolu birləşdirirdi. Bu gün isə biz artıq yeni formatda bərpa olunmuş bu ənənəvi marşrut çərçivəsində sıx fəaliyyət göstəririk.

Xalqlarımız arasında təşəkkül tapmış əlaqələr dövlətlərarası əməkdaşlığımızı şərtləndirən başlıca amillərdəndir. Sevindirici haldır ki, ötən otuz il ərzində qarşılıqlı inam və etimada əsaslanan Azərbaycan-Çin münasibətləri yüksələn xətlə inkişaf etmiş, əməkdaşlığımızın yeni istiqamətləri müəyyən edilmişdir. Bu gün siyasi əlaqələrimizin yüksək səviyyəsi, iqtisadiyyat, nəqliyyat-logistika, telekommunikasiya, humanitar və digər sahələrdə qarşılıqlı faydalı əməkdaşlığımız məmnunluq doğurur.

"Şərq-Qərb" və "Şimal-Cənub" nəqliyyat dəhlizlərinin qovşağında yerləşən Azərbaycan tərəfinizdən irəli sürülmüş "Kəmər və yol" təşəbbüsünü ilk dəstəkləyən ölkələrdən biri olmuşdur. Ölkəmizdə nəqliyyat-tranzit və logistika sahəsində reallaşan infrastruktur layihələri və yaradılmaqda olan yeni dəhlizlər əməkdaşlığımız üçün böyük imkanlar açır.

44 günlük Vətən müharibəsi nəticəsində Azərbaycanın tarixi torpaqlarının işğaldan azad edilməsi ölkələrimiz arasında əməkdaşlığın şaxələndirilməsi üçün əlverişli şərait yaratmışdır. Şərqi Zəngəzur və Qarabağ iqtisadi rayonlarında aparılan bərpa və yenidənqurma işlərinə daha çox Çin şirkətinin cəlb olunmasını dəstəkləyirik.

Ölkələrimizin ikitərəfli müstəvidə olduğu kimi, beynəlxalq təşkilatlar çərçivəsində də uğurlu əməkdaşlığı mövcuddur. Azərbaycan ilə Çin daim bir-birinin ərazi bütövlüyünü və suverenliyini dəstəkləyirlər.

Hörmətli cənab Sədr!

Bu illər ərzində dost! Çin Xalq Respublikasına həyata keçirdiyim səfərləri, Sizinlə görüşlərimizi, apardığımız ətraflı fikir mübadilələrini ən xoş təəssüratlarla xatırlayıram. İnanıram ki, sağlam təməl üzərində qurulmuş Azərbaycan-Çin ənənəvi dostluq əlaqələri və qarşılıqlı maraq doğuran əməkdaşlığımız xalqlarımızın mənafelərinə uyğun olaraq bundan sonra da inkişaf edəcək və genişlənəcəkdir.

Sizə möhkəm cansağlığı, xoşbəxtlik, işlərinizdə uğurlar, dost Çin xalqına daim əmin-amanlıq və firavanlıq diləyirəm.

*Hörmətlə,*

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 29 mart 2022-ci il*

## Çin Azərbaycanla əməkdaşlığın inkişafına böyük əhəmiyyət verir

### Azərbaycan Respublikasının Prezidenti zati-aliləri cənab İlham Əliyevə

Hörmətli cənab Prezident!

Çin Xalq Respublikası və Azərbaycan Respublikası arasında diplomatik münasibətlərin qurulmasının 30 illiyi münasibətilə Çin Xalq Respublikasının hökuməti və xalqı adından, şəxsən öz adımdan səmimi təbriklərimi və ən xoş arzularımı Sizə və Sizin simanızda dost Azərbaycan xalqına çatdırmaqdan şərəf duyuram.

Çin ilə Azərbaycan dostluğun və əməkdaşlığın ənənəvi tərəfdaşlarıdır. Çin-Azərbaycan münasibətləri 30 il ərzində inkişafın sağlam və sabit dinamikasını saxlayır, siyasi qarşılıqlı etimad davamlı surətdə dərinləşir və bütün sahələrdə əməkdaşlıq fəal şəkildə irəliləyir, hər iki ölkə regional və beynəlxalq səviyyələrdə sıx qarşılıqlı fəaliyyət göstərir. COVID-19 pandemiyasının yaranmasından sonra Çin və Azərbaycan bir-birinə kömək edir və bir-birini dəstəkləyir, çətinliklərin öhdəsindən gəlmək üçün səylərini birləşdirir ki, bu da bizim xalqlar arasında ənənəvi dostluğu nümayiş etdirir.

Mən ikitərəfli münasibətlərin inkişafına böyük əhəmiyyət verirəm və Çin Xalq Respublikası ilə Azərbaycan Respublikası arasında diplomatik münasibətlərin qurulmasının 30 illiyi münasibətilə bildirirəm ki, Çin-Azərbaycan münasibətlərində, ölkələrimizin və xalqlarımızın rifahı naminə müxtəlif sahələrdə əməkdaşlıqda yeni uğurlara nail olmaq üçün Sizinlə birlikdə səy göstərməyə hazıram.

Sizə möhkəm cansağlığı, işlərinizdə uğurlar, dost Azərbaycana firavanlıq, tərəqqi, onun xalqına xoşbəxtlik və əmin-amanlıq arzu edirəm.

***Si CİNPİN,***
***Çin Xalq Respublikasının Sədri***

# Azərbaycan Cənubi Qafqazda İtaliyanın əsas ticarət tərəfdaşıdır

Əvvəli 1-ci səh.



AZƏRTAC xəbər verir ki, qonaqları salamlayan Prezident **İlham ƏLİYEV** dedi:

- Cənab nazir, sizi görməyə çox şadam. Azərbaycana xoş gəlmisiniz. Bu, bir-birimizi bir daha görmək üçün yaxşı fürsətdir. Romadakı görüşümüzlə bağlı mənim çox yaxşı xatirələrim var və həmçinin bu, gündəliyimizdə duran məsələləri müzakirə etmək üçün bir imkandır.

Gündəlikdə duran məsələlərin sayı, həqiqətən də, artır. Bu, əməkdaşlığımızın çox yaxşı əlamətidir. Əlbəttə ki, ölkələrimiz arasında çox güclü siyasi əlaqələr tərəfdaşlığımızın güclü təməlini təşkil edir. 2014-cü və 2020-ci illərdə biz strateji tərəfdaşlıq üzrə iki mühüm bəyannamə imzaladıq. Bu da yaxın dost olmaq üçün qarşılıqlı iradənin mövcud olduğunu göstərir və biz artıq yaxın dostuq. Əlbəttə ki, mənim iki il bundan əvvəl İtaliyaya səfərim və 2018-ci ildə Prezident Mattarellanın Azərbaycana səfəri ilə bağlı çox yaxşı xatirələrim var. Səfərlər, müzakirələr və sənədlər - bunlar ölkələrimiz arasında güclü əlaqələrin olduğunu göstərir. Bildiyiniz kimi, bu yaxınlarda mənim Baş nazir Mario Draqi ilə telefon söhbətim olub və biz sizin Azərbaycana səfərinizi də müzakirə etdik.

Beləliklə, bütün işlər uğurla gedir və əlbəttə ki, bizim ticarət tərəfdaşlığımızın yaxşı göstəricilərini görməyə məmnunam. Məlumata baxdım və gördüm ki, Azərbaycan Cənubi Qafqazda İtaliyanın əsas ticarət tərəfdaşıdır və İtaliyanın Cənubi Qafqazla apardığı ticarətin 95 faizi Azərbaycanla aparılır. Rəqəmlər çox yaxşıdır, demək olar ki, ötən il 10 milyard ABŞ dolları olmuşdur. Əminəm ki, bu il İtaliyaya əlavə qaz təchizatına görə bu göstərici daha da artacaqdır. Əlbəttə ki, İtaliyanın bizim əsas ticarət tərəfdaşımız olması çox yaxşı əlamətdir. Enerji əməkdaşlığında yeni imkanlar var. Uzun illər ərzində Azərbaycan neft təchiz edən etibarlı mənbə olmuşdur və İtaliyaya neft təchizatının birnömrəli mənbəyidir. İndi isə "Cənub qaz dəhlizi" layihəsinin tamamlanması ilə önəmli qaz təchizatçısına çevrildik və biz qaz təchizatında 3-cü yerdəyik. İrəliləmək üçün potensial olsa, əlbəttə ki, biz bunu edəcəyik. Həmçinin ötən il bizim 7 milyard kubmetr qazı təchiz etməyimizlə bağlı göstərici də məni çox məmnun etdi və bu il bundan da çox olacaqdır.

Bütün bunlar əməkdaşlığın çox müsbət əlamətləridir, strateji və uzunmüddətli xarakter daşıyır. Buraya humanitar sahədə əməkdaşlığı da əlavə etməliyik. Bu gün çox mühüm hadisə - İtaliya-Azərbaycan Universitetinin təməlqoyma mərasimi olacaqdır. Yer artıq seçilib, hər şey hazırdır. Əminəm ki, bu, Azərbaycanda ən yaxşı universitetlərdən biri olacaqdır və beş italyan universiteti bu layihənin tərəfdaşı qismində çıxış edir. Həmçinin italyan şirkətlərinin azad edilmiş ərazilərin bərpa-quruculuq işlərində fəal iştirakı bizi sevindirir. Hazırda 3 şəhərdə İşğal və Zəfər muzeyləri İtaliya şirkətləri tərəfindən inşa olunur. Şuşada qədim məscidin bərpası və yeni məscidin inşası da İtaliya şirkətləri tərəfindən həyata keçirilir. Elektrik enerjisi sektorunda işlər gedir.

Beləliklə, qeyd etdiyim kimi, gündəlik genişdir və genişlənir. Mən çox şadam ki, bu, bizim əməkdaşlığımızın yaxşı nəticəsidir. Bir daha xoş gəlmisiniz. Sizə Bakıda yaxşı vaxt keçirməyi arzu edirəm.

İtaliyanın xarici işlər və beynəlxalq əməkdaşlıq naziri **Luici Di MAİO** dedi:

- Təşəkkür edirəm, hörmətli cənab Prezident. Vaxt ayırdığınıza görə minnətdaram. Bildiyiniz kimi, ilk dəfədir ölkənizdə səfərdəyəm. Sizi təbrik edirəm, ölkəniz möhtəşəmdir. Mən əsrarəngiz Bakı şəhərini yalnız "Formula - 1" Qran-prisi sayəsində görmüşdüm. Şəhər möhtəşəmdir, biz buraya avtomobillə gələndə gördük. Xüsusilə hazırkı vaxtda regionunuzda rəhbərliyiniz münasibətilə Sizi təbrik edirəm. Bildiyiniz kimi, bu il diplomatik münasibətlərimizin 30-cu ildönümüdür. Biz may ayında bu mühüm tədbiri qeyd edəcəyik.

Qonaq dövlətimizin başçısının 2020-ci ilin fevralında İtaliyaya səfərini möhtəşəm səfər kimi dəyərləndirərək dedi:

- Əfsuslar olsun ki, bu, pandemiyadan əvvəl İtaliyada sonuncu rəsmi səfər idi. Biz bunu xatırlayırıq. Bu, pandemiyadan əvvəl sonuncu yaxşı hadisə idi. Sizə bildirmək istərdim ki, qeyd etdiyiniz kimi, ölkələrimiz arasında mühüm əlaqələr var və iqtisadi əlaqələr çox yaxşı inkişaf edir. Düşünürəm ki, iqtisadi əlaqələr həmişə siyasi əlaqələrlə bağlı olur. İqtisadi əlaqələr artdıqca siyasi və tarixi əlaqələr də artır. Bizim birgə universitetimizin təməlinin qoyulması münasibətilə bu mühüm tədbirdə iştirak etmək imkanı əlaqələrimizin gücləndirilməsi istiqamətində daha bir addım olacaq. Siz TAP-ı qeyd etdiniz. TAP məhz bu dövrdə - sülh dövründə iqtisadi əlaqələrin yaradılmasının əhəmiyyətini nümayiş etdirir.

Luici Di Maio İtaliya Prezidenti Sercio Mattarellanın ölkəsinə səfərlə bağlı dəvətini dövlətimizin başçısına çatdırdı.

Prezident İlham Əliyev dəvətə görə minnətdarlığını bildirdi.

## Gəncə şəhərinin inzibati ərazi bölgüsündə qismən dəyişiklik edilməsi haqqında

### Azərbaycan Respublikasının Qanunu

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 95-ci maddəsinin I hissəsinin 3-cü bəndini rəhbər tutaraq **qərara alır:**

Gəncə şəhərinin inzibati ərazi bölgüsündə aşağıdakı dəyişikliklər edilsin:

1. Gəncə şəhərinin tərkibindəki Kəpəz və Nizami rayonları ləğv edilərək Azərbaycan Respublikasının ərazi vahidlərinin Dövlət reyestrindən çıxarılsın.

2. Ləğv edilmiş Nizami rayonunun tərkibindəki 1 və 2 nömrəli sahə inzibati ərazi dairələri müvafiq olaraq Gəncə şəhəri tərkibində 1 və 2 nömrəli sahə inzibati ərazi dairələri hesab edilsin.

3. Ləğv edilmiş Kəpəz rayonunun tərkibindəki 1 və 2 nömrəli sahə inzibati ərazi dairələri, Cavadxan qəsəbə, Hacıkənd qəsəbə, Məhsəti qəsəbə, Natəvan qəsəbə, Sadıllı qəsəbə, Şıxzamanlı qəsəbə inzibati ərazi dairələri müvafiq olaraq Gəncə şəhəri tərkibində 3 və 4 nömrəli sahə inzibati ərazi dairələri, Cavadxan qəsəbə, Hacıkənd qəsəbə, Məhsəti qəsəbə, Natəvan qəsəbə, Sadıllı qəsəbə, Şıxzamanlı qəsəbə inzibati ərazi dairələri hesab edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 4 mart 2022-ci il*

## Koronavirusla mübarizədə iştirak edən tibb işçilərinin əməkhaqlarına əlavənin müddəti artırılıb

Yeni növ koronavirus (COVID-19) pandemiyası ilə mübarizə tədbirlərində iştirak edən tibb işçilərinin əməkhaqlarına verilən əlavənin müddəti uzadılıb.

AZƏRTAC xəbər verir ki, Baş nazir Əli Əsədov bununla bağlı qərar imzalayıb.

Qərara əsasən, yeni növ koronavirus (COVID-19) infeksiyası ilə mübarizə tədbirlərində iştirak edən tibb işçilərinin əməkhaqlarına verilən əlavənin müddəti mayın 1-dək uzadılıb.

Qeyd edək ki, əvvəlcə bu müddət martın 1-dək nəzərdə tutulmuşdu.

# Böyük qayıdışa maneə yaradan yalnız minalardır

Qarabağ və Şərqi Zəngəzura Böyük qayıdışın başlanacağı günə çox az vaxt qalır. Hazırda işğaldan azad olunan torpaqlarımızda tikinti-quruculuq işləri ilə yanaşı, ərazilərin minalardan təmizlənmə prosesi davam etdirilir. Tikinti işlərinin sürətlə aparılmasına, həm də kommunikasiyaların çəkilməsinə maneə yaradan yalnız minalardır. Hansı ki, düşmən o əraziləri 30 il ərzində mina və partlamamış sursat məzarlığına çevirib.

## Bu problem qlobal səviyyədə səylərin birləşdirilməsini şərtləndirir

Azərbaycanın 2030-cu ilədək milli prioritetləri sırasında azad edilmiş ərazilərin bərpası və bu ərazilərə həyatın qaytarılması əsas strateji hədəflərdən biri kimi müəyyən edilib. Bu barədə aprelin 1-də Bakıda Azərbaycan Respublikası hökuməti, Azərbaycan Respublikasının Minatəmizləmə Agentliyi (ANAMA) və BMT-nin İnkişaf Proqramının (UNDP) birgə təşkilatçılığı ilə "Humanitar minatəmizləmə fəaliyyəti və dayanıqlı inkişaf məqsədləri" mövzusunda keçirilən konfransda məlumat verilib.

Məlum olub ki, 2020-ci il noyabrın 10-dan bu günədək 23 min hektardan çox ərazi təmizlənib, 55 mindən çox mina və partlamamış hərbi sursat zərərsizləşdirilib. Bunlardan 10 mini tank əleyhinə mina, 19 mini piyada əleyhinə mina, 26 mini isə partlamamış hərbi sursatlar olub. Azərbaycanda minatəmizləmə fəaliyyətinin məhz bərpa və quruculuq işləri ilə paralel, əlaqələndirilmiş aparılması özlüyündə bu fəaliyyətin Dayanıqlı İnkişaf Məqsədləri ilə bağlılığının əyani göstəricisidir. Azərbaycanın təcrübəsi, həmçinin mina probleminin Dayanıqlı İnkişaf Məqsədlərinə nail olunması istiqamətində nə dərəcədə ciddi manеələr yaratdığının bariz nümunəsidir.

Dünyanın 34 ölkəsindən 150 iştirakçının qatıldığı toplantı mina probleminin, onun törətdiyi nəticələrin və fəsadların qlobal miqyasda işıqlandırılması və gündəmə gətirilməsi baxımından növbəti fürsət idi. Sirr deyil ki, bu gün də minalar və müharibələrin qalıqları dünyanın bir çox bölgəsində sülhə, insanların həyat və sağlamlığına, inkişafına və tərəqqisinə ən ciddi təhdid və manеələrdən biri olaraq qalır. Təbii ki, beynəlxalq miqyasda mövcud olan bu cür problem məhz qlobal səviyyədə səylərin birləşdirilməsini şərtləndirir.

Konfransda çıxış edən Azərbaycan Respublikası Prezidentinin köməkçisi - Prezident Administrasiyasının Xarici siyasət məsələləri şöbəsinin müdiri Hikmət Hacıyev deyib ki, minalar, müharibənin partlamamış hərbi qalıqları münaqişələr bitdikdən sonra onilliklər boyu sülhə, inkişafa böyük əngəl törədir. Münaqişədən sonrakı dövrdə minaların təmizlənməsi önəmli problem olaraq qalır. Azərbaycan əraziləri işğaldan azad olunandan sonra minalardan və partlamamış hərbi sursatlardan çirklənmə baxımından dünyada ən yüksək yerlərdən birini tutur. Hazırda ərazilərimizdə ağaclar əvəzinə minalar var. Əlbəttə ki, Azərbaycan hökuməti bunun əksini edəcək.

## Avropa İttifaqı ANAMA-ya 2,5 milyon avro məbləğində yardım göstərib

Hikmət Hacıyevin sözlərinə görə, Azərbaycan hökumətinin əsas məqsədi vətəndaşların öz doğma yurdlarına təhlükəsiz şəkildə qayıtmasıdır. Bu qayıdışın hansı müddətdə baş verməsi ərazilərin minalardan təmizlənməsindən asılıdır. İşğaldan azad olunmuş ərazilərdə indiyədək 30-dan çox şəxs minaya düşərək həlak olub. Ermənistan Azərbaycana minalanmış ərazilərin xəritələrini təqdim etsə də, onların dəqiqliyi 25 faiz təşkil edir.

Xatırladaq ki, Azərbaycanın ardıcıl tələblərindən və beynəlxalq təzyiqlərdən sonra Ermənistan işğaldan azad edilmiş ərazilərin minalanmış sahələrinin formulyarlarını ölkəmizə təqdim etdi. Ermənistan tərəfi müvafiq beynəlxalq məhkəmə işləri çərçivəsində məsuliyyətdən yayınmaq məqsədi ilə, guya, bütün mina sahələrini əhatə edən formulyarların verildiyini iddia etsə də, bu sənədlər işğaldan azad edilmiş əraziləri tam əhatə etmir və ciddi problemlər yaradır.

Ermənistanın daha öncə Ağdam, Füzuli və Zəngilan rayonları üzrə verdiyi mina sahələri üzrə məlumatların dəqiqliyi, ən yaxşı halda, 25 faiz təşkil etdi. Təqdim olunan formulyarlar hərtərəfli təhlil olunduqdan sonra onların nə dərəcədə dəqiq olmasını söyləyə bilərik. ANAMA və Müdafiə Nazirliyinin apardığı təhlil və emal işləri isə göstərir ki, verilmiş xəritələr yenə də minalanmış bütün əraziləri tam əhatə etmir və gerçək vəziyyəti düzgün əks etdirmir.

Tədbirdə o da bəlli olub ki, Avropa İttifaqı ANAMA-ya 2,5 milyon avro məbləğində yardım göstərib. Bunun 1,5 milyonu humanitar məqsəd - minalardan təmizlənmə üçün nəzərdə tutulub. Bundan əlavə, UNICEF vasitəsilə 500 min avro məbləğində vəsait ayrılıb. O deyib ki, Aİ minalardan təmizlənmə sahəsində ANAMA-nı dəstəkləyir, BMT-nin İnkişaf Proqramı ilə sıx əməkdaşlıq edir, öz təcrübələrini bölüşür. Azərbaycanla Avropa İttifaqı (Aİ) arasında ekoproqram çərçivəsində əməkdaşlıq mövcuddur.

Bu tədbir uzunmüddətli sülh və sosial-iqtisadi inkişaf üçün humanitar minatəmizləmə fəaliyyətinin potensialı ilə 2030-cu ildə davamlı inkişaf gündəliyinin nailiyyəti arasındakı əlaqələri, hər yerdə zorakılığın və onunla bağlı ölüm hallarının bütün formalarını əhəmiyyətli dərəcədə azaltmağa çalışan 16-cı Dayanıqlı İnkişaf Məqsədini araşdırıb.

Bundan əlavə, məcburi köçkünlərin öz doğma yurdlarına Böyük qayıdış adı altında qaytarılması "Azərbaycan 2030: Sosial-iqtisadi inkişafın Milli Prioritetləri" proqramının mühüm tərkib hissəsidir ki, bu zaman Dayanıqlı İnkişaf Məqsədləri vətəndaşların Azərbaycanın münaqişədən zərər çəkmiş ərazilərinə davamlı şəkildə köçürülməsində əsas sütuna çevrilir.

Azərbaycan bu gün öz daxili imkanlarına sığınıb problemlərini həll etməyə çalışır, amma heç kəs unutmalı deyil ki, bu, təkcə Azərbaycanın problemi deyil, bu həm də ümumbəşəri qorxunc reallıqdır və problemin həllinə hər kəsin qatılması vacibdir.

İnanırıq ki, 44 günə düşməndən azad edilən torpaqlarımız elə qısa zamanda da gözəgörünməz düşməndən azad ediləcək və dövlətin Böyük qayıdış planı reallaşmağa başlayacaq.

***Rəşad BAXŞƏLİYEV,***
***"Azərbaycan"***

# Heydər Əliyev Mərkəzində "III Beynəlxalq Autizm ABA Azərbaycan" konfransı işə başlayıb

Autizm maarifləndirmə tədbirləri çərçivəsində aprelin 2-də Heydər Əliyev Mərkəzində "III Beynəlxalq Autizm ABA Azərbaycan" konfransı başlayıb.






AZƏRTAC xəbər verir ki, Heydər Əliyev Fondu, Heydər Əliyev Mərkəzi, Səhiyyə Nazirliyi, Təhsil Nazirliyi, Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi, Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi, İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyi, "Regional İnkişaf" İctimai Birliyi və "Birgə və Sağlam" İctimai Birliyinin təşkilatçılığı ilə keçirilən konfransın məqsədi autizm sindromunun erkən aşkarlaması, müdaxiləsi üzrə xidmətlər, eləcə də autizmli şəxslərin ömür boyu təhsil və məşğulluğunun təmin olunmasında inklüziv və multidisiplinar yanaşmalara əsaslanan qabaqcıl beynəlxalq təcrübələrin öyrənilməsi, eyni zamanda ictimaiyyətin diqqətini bu şəxslərin problemlərinə yönəltmək, autizmli insanların həyat keyfiyyətinin yaxşılaşdırılmasına kömək etməkdir.

"bp Azərbaycan", "Tekfen İnşaat", "Beauttech" və "EKVİTA" şirkətlərinin, Azərbaycan hotellər Assosiasiyası, "Fairmont Baku" ,"Marriott Baku Boulevard" hotellərinin, "Ümid var" Xeyriyyə Cəmiyyətinin dəstəyi ilə keçirilən konfransın açılışında çıxış edən təhsil nazirinin müavini Firudin Qurbanov bildirib ki, tədqiqatlar autizmi yalnız dərmanlar vasitəsilə sağaltmağın mümkün olmadığını göstərir. Bu xəstəliyin əsas müalicəsi ünsiyyət və təlim, həmçinin reabilitasiya yolu ilə həyata keçirilməlidir. O bildirib ki, autizmli uşaqların cəmiyyətə inteqrasiyasına dəstək olmaq çox vacibdir.

Sonra çıxış edən əmək və əhalinin sosial müdafiəsi nazirinin müavini Hidayət Abdullayev sağlamlıq imkanları məhdud uşaqlara dəstəyin verilməsinin dövlətin əsas prioritetlərindən olduğunu vurğulayıb. O, Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi tərəfindən bu istiqamətdə görülən işlər barədə məlumat verib. Bildirib ki, sağlamlıq imkanları məhdud şəxslərə sosial ödənişlər son 4 ildə 3,4 dəfə artırılıb. Son illərdə reabilitasiya mərkəzləri müasir tələblərə uyğun qurulub. 2019-2020-ci illərdə 12 reabilitasiya və sosial dövlət müəssisəsi əsaslı təmir olunaraq istifadəyə verilib.

H.Abdullayev deyib ki, Azərbaycanda əlilliyi olan şəxslərə, sağlamlıq imkanları məhdud uşaqlara diqqət və qayğının artırılmasında Birinci vitse-prezident, Heydər Əliyev Fondunun prezidenti Mehriban Əliyeva böyük dəstək göstərir. Bu gün müasir tələblərə cavab verən üç uşaq reabilitasiya mərkəzi fəaliyyət göstərir. İl ərzində həmin reabilitasiya mərkəzlərində sağlamlıq imkanları məhdud, eləcə də autizm sindromlu dörd minə yaxın uşaq sosial, peşə fəaliyyətləri ilə əhatə olunur.

Səhiyyə nazirinin müavini İlqar Qasımov çıxışında dövlətimizin xüsusi qayğıya ehtiyacı olan şəxslərə göstərdiyi diqqətdən danışıb. Həssas qruplardan olan insanların daim dövlətimizin nəzarətində olduğunu bildirib.

Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi sədrinin müavini Aynur Sofiyeva qeyd edib ki, son 15 ildə nikah üzrə autizmlə doğulan körpələrin sayında təxminən 2,5 dəfə artım olub. Ölkəmizdə autizmlə bağlı mühüm işlər həyata keçirilir və müəyyən nəticələr əldə olunub. Əhalinin bu istiqamətdə məlumatlandırılmasında müsbət tendensiyalar müşahidə edilir.

A.Sofiyeva dövlətin sözügedən sahədə gördüyü işlərdən danışıb. Heydər Əliyevin Fondu tərəfindən autizmli uşaqlar üçün mərkəzin istifadəyə verildiyini xatırladıb. Deyib ki, bu, autizmli uşaqların cəmiyyətə inteqrasiyasına, onlara dəstək verilməsinə yardım edəcək.

Daha sonra çıxış edən İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyinin İdarə Heyəti sədrinin müavini Nigar Bayramova autizmli uşaqlara diqqət və qayğının daha da artırılmasının vacibliyini vurğulayıb. O, bütün sahələr kimi, autizm sahəsinin də dövlət başçısı və Birinci vitse-prezident Mehriban Əliyevanın diqqət mərkəzində olduğunu deyib. Həmçinin autizmli uşaqlara erkən diaqnostikanın əhəmiyyətini vurğulayıb.

"Regional İnkişaf" İctimai Birliyinin Beynəlxalq əməkdaşlıq şöbəsinin müdiri Leyla Tağıyeva bildirib ki, ABA Azərbaycan autizm spektr pozuntusu barədə çoxşaxəli və genişmiqyaslı maarifləndirmə işləri aparır. Bugünkü konfrans autizmi anlamaq və anlatmaq baxımından əhəmiyyətlidir.

"Birgə və Sağlam" İctimai Birliyinin sədri Aytən Eynalova qeyd edib ki, dünyada hər 44 uşaqdan biri autizm spektr pozuntusu ilə doğulur. Buna görə də autizm bütün cəmiyyətimizin və dünyamızın əsas problemlərindən birinə çevrilməkdədir.

Konfranda videomüraciətlə çıxış edən autizm spektr pozuntu diaqnozlu professor Temple Qrandin öz həyatı barədə danışıb, uşaqlıqda keçirdiyi çətinliklərdən, autizm barədə yazdığı məqalədən danışıb və həyat təcrübələrini bölüşüb.

Təhsil məsləhətçisi Peter Qrimes Azərbaycanda bütün uşaqlar üçün inklüziv təhsil yanaşması haqqında məlumat verib. Bildirib ki, inklüziv təhsilin genişləndirilməsi üçün əvvəlcə inklüziv məktəblərin qurulması vacibdir. Son 5 il ərzində ölkəmizdə apardıqları araşdırmalar, təlimlər barədə danışan təhsil məsləhətçisi bu sahədə təlim keçən müəllimlərin təcrübələrinin artırılmasının vacibliyini vurğulayıb.

Digər təhsil məsləhətçisi Marieke Stevens isə Azərbaycanda apardıqları iki tədqiqat barədə məlumat verib, statistik rəqəmləri diqqətə çatdırıb. Azərbaycanda məhdud imkanlara malik olan uşaqlara dəstək formalarını diqqətə çatdırıb. Həmçinin müəllimlərin təlimlərdən keçməli olduğunu vurğulayıb. M.Stevens müəyyən qurumların bu istiqamətdə monitorinq aparmalı olduğunu bildirib: "Biz Azərbaycanda son illərdə inklüziv təhsillə bağlı inkişafın olduğunu görürük. Keçən ilin noyabrında apardığımız tədqiqatlar göstərdi ki, autizmli uşaqlara diqqət və qayğı göstərilir. Həmin uşaqlar keçirilən təlimlərdən sonra inkişaf edir".

Çıxış edən Biruni Universiteti, BCBA-D, "BBA" şirkətinin icraçı direktoru Binyamin Birkan autizmli uşaqların ümumtəhsil məktəblərinə hazırlanmasında xüsusi təhsilin əhəmiyyəti və sistemli zəifləmə haqqında məlumat verib. O, autizmli uşaqların müxtəlif sahələrdə inkişafının vacibliyini diqqətə çatdırıb.

Sonda "Let's Make a Contract" kitabının təqdimatı və imzalanma mərasimi baş tutub.

Konfransa bu gün gənc pianoçu Əlisahib Bayramovun müşayiəti və incəsənət xadimlərinin iştirakı ilə keçiriləcək konsert proqramı ilə yekun vurulacaq.

# Qeyri-neft sənayesinin inkişafı prioritet istiqamət olaraq qalır

Əvvəli 1-ci səh.

İndiki halda ölkənin ixrac potensialının müəyyən hissəsi neft-qaz məhsulları olsa da, son illər sənayeləşmə istiqamətində aparılan islahatlar sayəsində qeyri neft-qaz ixracının həcmi ildən-ilə artır.

Ölkəmizdə sənayenin inkişafı məqsədilə yerli və xarici sahibkarlar üçün bir sıra güzəştlər edirlər. İlk növbədə sənaye park və zonalarında bütün infrastruktur dövlət vəsaiti hesabına icra edilir. Bununla yanaşı, sahibkarlara vergi və gömrük güzəştlərindən də istifadə etmək imkanı yaradılır. Belə ki, Vergi Məcəlləsinə və "Gömrük tarifi haqqında" qanuna uyğun olaraq sənaye parklarının rezidentləri qeydiyyata alındıqları tarixdən 7 il müddətinə mənfəət vergisindən, əmlak vergisindən, torpaq vergisindən, istehsal məqsədilə idxal etdikləri texnikanın, texnoloji avadanlıqların və qurğuların idxalı zamanı ƏDV-dən, həmçinin gömrük rüsumlarından azad edilirlər.

Yaradılan sənaye zonalarında indiyədək 5,8 milyard manatlıq məhsul istehsal olunub. Ölkənin daxili tələbatı ödənildikdən sonra 1,7 milyard manatlıq məhsul dünya bazarına ixrac edilib. Bu məhsullar "Made in Azerbaijan" brendi ilə 35 ölkəyə satılıb. Cari ilin yanvar-fevral aylarında isə sənaye zonalarındakı istehsal müəssisələri tərəfindən 436 milyon manat dəyərində məhsul istehsal olunub. Həmin məhsulların 191 milyon manatı ixrac edilib. Cari ilin əvvəlində istehsalın artması müşahidə olunub. Belə ki, sənaye zonaları üzrə məhsul satışı ötən ilin eyni dövrü ilə müqayisədə 76 faiz yüksəlməklə yanaşı, ixracı 138 faiz artıb.

Ölkədə sənaye zonalarının yaradılması qeyri-neft məhsulları ixracının artmasını stimullaşdırır. Cari ilin yanvar-fevral aylarında Azərbaycanın ümumi ixracının dəyəri 6 milyard dollar təşkil edib. Həmin məbləğin 461,8 milyon dolları qeyri-neft sektorunun payına düşür. Bu ilin ilk iki ayı ərzində ötən ilin eyni dövrü ilə müqayisədə sənaye zonalarında istehsal olunan kimya sənayesi məhsullarının ixracı 9 dəfə, alüminium və ondan hazırlanan məmulatların ixracı 57,4, pambıq ipliyi ixracı 35,2, qara metallar və onlardan hazırlanan məmulatların ixracı 16,5 faiz artıb.

44 günlük Vətən müharibəsindəki tarixi qələbəmiz bizə işğaldan azad olunan ərazilərdə sənayeni inkişaf etdirmək üçün yeni imkanlar açır. Artıq bu barədə qərar qəbul olunub. Düşmən işğalından azad edilən torpaqlarda Prezident İlham Əliyevin müvafiq sərəncamları ilə Ağdam Sənaye Parkı və "Araz Vadisi İqtisadi Zonası" sənaye parkının yaradılmasına başlanılıb. Hazırda burada infrastrukturun yaradılması üçün müvafiq işlər görülür. Bu sənaye parklarının fəaliyyətə başlaması ölkədə qeyri-neft sektorunda məhsul istehsalının çəkisini artıracaq. Hədəfdə qeyri-neft sektorunu inkişaf etdirməklə ölkənin enerji resurslarının satışından asılılığını azaltmaqdır. Bu günə qədər görülən işlər onu göstərir ki, qarşıya qoyulan hədəfə ildən-ilə yaxınlaşırıq.

***Rüstəm KAMAL,***
***"Azərbaycan"***

# Prezident Şavkat MİRZİYOYEV: "Son illər Azərbaycan ilə Özbəkistan arasında ikitərəfli əməkdaşlığın inkişafında böyük uğurlar əldə edilib"

Milli Məclisin Sədri Sahibə Qafarova Özbəkistana rəsmi səfəri çərçivəsində bu ölkənin Prezidenti Şavkat Mirziyoyev ilə görüşüb.





Parlamentin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən AZƏRTAC-a bildirilib ki, görüşdə ölkələrimiz arasında mövcud olan yüksəksəviyyəli münasibətlərin təməlində ortaq tarixi köklərin, dil, din, mədəniyyət, adət-ənənə və dəyərlərin dayandığı vurğulanıb. Prezident Şavkat Mirziyoyev qeyd edib ki, münasibətlərimiz dövlətlərimiz müstəqillik qazandıqdan sonra daha da inkişaf edib. Son illərdə isə Azərbaycan ilə Özbəkistan arasında ikitərəfli əməkdaşlığın inkişafında daha böyük uğurlar əldə olunub. O bildirib ki, ölkələrimiz arasında əlaqələrin yüksək səviyyədə olmasında dövlət başçılarımız arasında münasibətlərin mühüm rolu var.

Qeyd edilib ki, pandemiya ilə əlaqədar qlobal iqtisadiyyatda mövcud vəziyyətə baxmayaraq, Azərbaycan ilə Özbəkistan arasında ikitərəfli təmaslarda müsbət dinamika qorunub. Qarşılıqlı fəaliyyətin bütün sahələrində - iqtisadiyyat, siyasət, mədəniyyət və sosial sahələrdə nəzərəçarpan irəliləyiş əldə olunub. Bütün səviyyələrdə intensiv təmaslar qurulur, rəsmi nümayəndə heyətləri, işgüzar və ictimai dairələrin nümayəndələri arasında fikir mübadiləsi aparılır. Son illərdə pandemiyaya baxmayaraq, ticarətin həcmi dörd dəfə artıb. İlin əvvəlindən ticarət dövriyyəsinin 25 faiz artması münasibətlərimizin müsbət xarakteristikasını göstərir.

Prezident Şavkat Mirziyoyev ikitərəfli münasibətlərin inkişafında qanunverici orqanların müsbət rolunu qeyd edərək deyib ki, Özbəkistan ilə Azərbaycan parlamentləri arasında sıx və çoxşaxəli tərəfdaşlıq mövcuddur. Qarşılıqlı fəaliyyəti daha da inkişaf etdirmək üçün iki ölkənin qanunverici orqanları arasında sistemli və müntəzəm əməkdaşlığı daha da gücləndirmək lazımdır. Eyni zamanda parlamentarilər xalqların bilavasitə nümayəndələri kimi "xalq diplomatiyası"nın təşviqində, o cümlədən Özbəkistan və Azərbaycanın regionları arasında əlaqələrin möhkəmləndirilməsində, iqtisadi və humanitar layihələrin dəstəklənməsində əsas rol oynamalıdırlar. Özbəkistan Prezidenti bu mənada Azərbaycan Milli Məclisi Sədrinin səfərinin əhəmiyyətini və aparılan danışıqları yüksək qiymətləndirib.

Milli Məclisin Sədri Sahibə Qafarova səmimi qəbula görə Özbəkistan Prezidentinə minnətdarlığını bildirib, Azərbaycan Prezidenti İlham Əliyevin salamlarını və xoş arzularını çatdırıb. Deyib ki, Azərbaycan və Özbəkistan arasında dərin tarixi köklərə əsaslanan əlaqələr iki xalqın rifahı naminə möhkəmlənməkdə və inkişaf etməkdə davam edir. S.Qafarova qeyd edib ki, Azərbaycan və Özbəkistanın dövlət başçıları arasında yüksəksəviyyəli münasibətlər çox dinamik, səmərəli və qarşılıqlı faydalı münasibətlərin inkişafında mühüm rol oynayır. Parlamentlərimiz arasında əlaqələr haqqında məlumat verən Milli Məclisin Sədri vurğulayıb ki, ikitərəfli münasibətlərimiz qanunverici orqanlar səviyyəsində də inkişaf edir. Hər iki ölkənin qanunvericilik orqanlarında dostluq qrupları fəaliyyət göstərir və deputatlarımızın qarşılıqlı səfərləri, nüfuzlu beynəlxalq parlament təşkilatlarında uğurlu əməkdaşlığı ikitərəfli əlaqələrin inkişafına töhfə verir.

Sonra Milli Məclisin Sədri Sahibə Qafarova Özbəkistan Prezidentinə Azərbaycanın 2020-ci ildə 44 günlük Vətən müharibəsində əldə etdiyi Zəfər, regionda yaranmış yeni şərait və imkanlar barədə ətraflı məlumat verib. Bildirib ki, 2020-ci ildə Azərbaycan Ordusu Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə Ermənistan tərəfindən 30 ilə yaxın işğal altında saxlanılan torpaqlarımızı azad edərək ölkəmizin ərazi bütövlüyünü bərpa edib, BMT Təhlükəsizlik Şurasının qətnamələrinin icrasını öz gücünə yerinə yetirib. Qarabağ münaqişəsinin artıq tarixə çevrildiyini deyən Milli Məclisin Sədri bildirib ki, Ermənistan işğal dövründə şəhər və rayonlarımızı, kəndlərimizi, xalqımıza məxsus tarixi, mədəni abidələri, məscidləri dağıdıb və talan edib. Hazırda Azərbaycan azad edilmiş ərazilərində sürətli bərpa-quruculuq işləri həyata keçirir.

Milli Məclisin Sədri dost Özbəkistanın hər zaman Azərbaycanın suverenliyini, ərazi bütövlüyünü və sərhədlərinin toxunulmazlığını dəstəklədiyini qeyd edib. O, bu mövqeyinə və Füzuli rayonunda məktəb tikintisi ilə bağlı verdiyi dəstəyə görə Özbəkistana minnətdarlığını bildirib.

Prezident Şavkat Mirziyoyev onun da salamını Azərbaycanın dövlət başçısına çatdırmağı xahiş edib və xoş arzularına görə ona minnətdarlığını ifadə edib.

Görüşdə tərəfləri maraqlandıran digər məsələlər barədə də fikir mübadiləsi aparılıb.

# Parlament nümayəndə heyəti Azərbaycanın Özbəkistandakı səfirliyinə gedib

Milli Məclisin Sədri Sahibə Qafarovanın başçılıq etdiyi parlament nümayəndə heyəti Özbəkistana rəsmi səfəri çərçivəsində Azərbaycanın bu ölkədəki səfirliyində olub.

AZƏRTAC xəbər verir ki, spiker Sahibə Qafarova və deputatlarımız səfirlikdə Ümummilli Lider Heydər Əliyevin büstünün önünə gül dəstəsi düzüblər.

Sonra ölkəmizin Özbəkistandakı səfiri Hüseyn Quliyev nümayəndə heyətinin üzvlərinə burada səfirliyin əməkdaşları və fəaliyyəti üçün yaradılmış şərait haqqında məlumat verib.



# Azərbaycan parlament nümayəndə heyəti Özbəkistanda Prezident məktəbinə və Həzrət İmam Məscid kompleksinə baş çəkib



AZƏRTAC xəbər verir ki, burada nümayəndə heyətinə məlumat verilib ki, ən müasir standartlara cavab verən məktəbdə qabaqcıl tədris texnologiyaları tətbiq olunur. Milli Məclisin Sədri Sahibə Qafarova məktəbə xatirə hədiyyəsi və kitablar təqdim edib.

Nümayəndə heyəti Daşkənd şəhərində Həzrət İmam Məscid kompleksi ilə də tanış olub. Məlumat verilib ki, bu məscid 2007-ci ildə inşa olunub. Məscidin tikintisi zamanı milli özbək memarlığının elementlərindən geniş istifadə edilib.

Milli Məclisin nümayəndə heyəti XVI əsrdə inşa olunmuş "Muyi-mübarək" mədrəsəsinə və Özbəkistan Müsəlmanları İdarəsinin kitabxanasına da baxıb. Kitabxananın fondunda VII əsrə aid "Qurani-Kərim" və digər nadir Şərq əlyazmaları saxlanılır.





Milli Məclisin Sədri Sahibə Qafarovanın başçılıq etdiyi Azərbaycan parlament nümayəndə heyəti aprelin 2-də Özbəkistan Respublikasına rəsmi səfər çərçivəsində Daşkənd şəhərində fəaliyyət göstərən Prezident məktəbində olub.



# Azərbaycanın parlament nümayəndə heyəti Özbəkistandakı Heydər Əliyev adına Mədəniyyət Mərkəzində olub





Milli Məclisin Sədri Sahibə Qafarovanın başçılıq etdiyi parlament nümayəndə heyəti aprelin 2-də Azərbaycanın Özbəkistandakı səfirliyinin nəzdində Heydər Əliyev adına Mədəniyyət Mərkəzində olub.

AZƏRTAC xəbər verir ki, Milli Məclisin Sədri Sahibə Qafarova Mərkəzin qarşısında Ulu Öndər Heydər Əliyevin abidəsi önünə əklil qoyub, nümayəndə heyətinin üzvləri gül dəstələri düzüblər.

Mərkəzin rəhbəri Samir Abbasov nümayəndə heyətinə məlumat verib ki, Heydər Əliyev adına Mədəniyyət Mərkəzi 2010-cu ildə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Özbəkistana səfəri zamanı istifadəyə verilib.

Daşkənd şəhərinin Mirabad rayonunun mərkəzindəki Heydər Əliyev küçəsində yerləşən mərkəzdə Heydər Əliyev, Azərbaycanın dövlətçilik tarixi, Azərbaycan və Özbəkistanın müştərək Dostluq muzeyləri fəaliyyət göstərir.



Azərbaycanın parlament nümayəndə heyətinin üzvləri Mədəniyyət Mərkəzində Ümummilli Lider Heydər Əliyevin həyat və fəaliyyətinin müxtəlif dövrlərini əks etdirən materiallar, dövlət rəhbərləri ilə görüşlərini əbədiləşdirən fotosənədlər, görkəmli şəxslərin Ulu Öndər haqqında fikirləri, həmçinin respublikamızın tarixin müxtəlif dövrlərinə aid xəritələri, tarixi sənədlər, görkəmli şəxsiyyətlər barədə məlumatlar, Azərbaycanla Özbəkistan arasında qədim tarixi və mədəni əlaqələrdən, bu gün inkişaf edən münasibətlərimizdən bəhs edən eksponatlarla tanış olublar.

# Azərbaycanla İtaliya arasında strateji dialoqun birinci iclası olub

Azərbaycan Respublikasının xarici işlər naziri Ceyhun Bayramov aprelin 2-də İtaliya Respublikası xarici işlər və beynəlxalq əməkdaşlıq naziri Luici Di Maionun ölkəmizə rəsmi səfəri çərçivəsində İtalyan həmkarı ilə görüşüb.





Xarici İşlər Nazirliyinin Mətbuat xidməti idarəsindən AZƏRTAC-a bildiriblər ki, iki nazir arasında əvvəlcə təkbətək görüş keçirilib.

Daha sonra xarici işlər nazirlərinin iştirakı ilə iki ölkə arasında strateji dialoqun birinci iclası keçirilib.

Nazir Ceyhun Bayramov bu görüşün çox əlamətdar olduğunu, Azərbaycan və İtaliya arasında diplomatik münasibətlərin qurulmasının 30 illiyinə təsadüf etdiyini qeyd edib. Nazir bu xüsusda təbriklərini çatdırıb.

İtaliyanın xarici işlər və beynəlxalq əməkdaşlıq naziri Luici Di Maio səfəri çərçivəsində Azərbaycan Respublikası Prezidenti ilə keçirilən görüşə məmnunluqla istinad edib. O, strateji dialoqun cari iclasının Azərbaycanın dövlət başçısının 2020-ci ilin fevral ayında İtaliyaya dövlət səfəri zamanı imzalanmış "Çoxölçülü Strateji Tərəfdaşlığın gücləndirilməsinə dair Birgə Bəyannamə"yə əsaslandığını xatırladıb. Nazir bu il iki ölkə arasında diplomatik əlaqələrin qurulmasının 30 illiyinin qeyd olunmasını əlamətdar hadisə kimi vurğulayıb.

İclasda Azərbaycan-İtaliya ikitərəfli strateji tərəfdaşlıq əlaqələri, regional və beynəlxalq gündəliyin qarşılıqlı maraq doğuran məsələləri müzakirə edilib.

Nazirlər ölkələrimiz arasında yüksəksəviyyəli siyasi dialoq, qarşılıqlı səfərlər, geniş iqtisadi əməkdaşlıq, enerji, nəqliyyat, mədəniyyət, humanitar və digər sahələrdə intensiv mübadilələrin mövcudluğundan məmnunluq ifadə ediblər.

Ölkələrimiz arasında bütün sahələrdə qarşılıqlı faydalı əməkdaşlığın olduğunu, İtaliyanın Azərbaycanın ən böyük ticarət tərəfdaşı, Azərbaycanın isə İtaliyanın ən böyük xam neft təchizatçısı və Cənubi Qafqazda ən böyük ixrac məntəqəsi olduğu vurğulanıb. İtaliya şirkətlərinin Azərbaycan iqtisadiyyatının istər neft, istərsə də qeyri-neft sektorunda uğurla fəaliyyət göstərdiyi, iqtisadi əməkdaşlığın daha da dərinləşməsi üçün geniş imkanların mövcudluğu diqqətə çatdırılıb.



Azərbaycan Respublikası və İtaliya Respublikası arasında ticarət və iqtisadi əməkdaşlıq üzrə Hökumətlərarası Komissiyanın fəaliyyətinin uğurla inkişaf etdiyi qeyd edilib. Hökumətlərarası Komissiyanın növbəti iclasının tezliklə keçirilməsinin iqtisadi əlaqələrin daha da genişləndirilməsi və iqtisadi əməkdaşlığın şaxələndirilməsi üçün faydalı olacağı vurğulanıb.

İki dövlət arasında humanitar sahədə əməkdaşlığın genişlənməsi qeyd edilib və cari səfər çərçivəsində iki dövlətin liderlərinin razılaşmasına əsasən İtaliya-Azərbaycan Universitetinin təməlqoyma mərasiminin keçiriləcəyi məmnunluqla vurğulanıb.

İki ölkə arasında münasibətlərin inkişafında parlamentlərarası əlaqələrin, o cümlədən dostluq qruplarının rolunun önəmi qeyd olunub, bu sahədə gələcək əməkdaşlığın daha da möhkəmləndirilməsinin əhəmiyyəti vurğulanıb. Bu xüsusda İtaliya hökumətinin və parlamentinin, o cümlədən senator və deputatların Vətən müharibəsi və postmünaqişə dövründə sərgilədiyi ədalətli və beynəlxalq hüquqa əsaslanan mövqe Azərbaycan tərəfindən yüksək qiymətləndirilib.

Nazir Ceyhun Bayramov bölgədə mövcud olan cari vəziyyət, o cümlədən üçtərəfli bəyanatların yerinə yetirilməsi ilə bağlı Azərbaycan tərəfindən atılan addımlar, Azərbaycanın iki ölkə arasında münasibətlərin normallaşması ilə bağlı mövqeyi, azad olunmuş ərazilərdə həyata keçirilən bərpa və yenidənqurma işləri ilə bağlı məlumat verib. Ermənistan tərəfindən üçtərəfli Bəyanatın müddəalarının pozulmasının bölgədə sülh quruculuğuna əngəl olduğu qarşı tərəfin diqqətinə çatdırılıb.

İclasda Azərbaycanda həyata keçirilən humanitar minatəmizləmə fəaliyyəti barədə fikir mübadiləsi aparılıb. İtaliya tərəfi minatəmizləmə prosesində iştirakını genişləndirmək marağını səsləndirib.

Tərəflər həmçinin çoxtərəfli formatda, beynəlxalq təşkilatlar çərçivəsində əməkdaşlıq, o cümlədən Avropa İttifaqı ilə əlaqələr, eləcə də Ukraynadakı vəziyyəti müzakirə ediblər.

Görüşün sonunda nazirlər tərəfindən "Azərbaycan Respublikası ilə İtaliya Respublikası arasında Strateji Dialoqun birinci iclasının protokolu" imzalanıb.

# Bakıda "Azərbaycan-İtaliya: Çoxölçülü strateji tərəfdaşlığa aparan yol" adlı konfrans keçirilib









Aprelin 2-də ADA Universitetində "Azərbaycan-İtaliya: Çoxölçülü strateji tərəfdaşlığa aparan yol" adlı konfrans keçirilib.

AZƏRTAC xəbər verir ki, Azərbaycanın xarici işlər naziri Ceyhun Bayramov, təhsil naziri Emin Əmrullayev, energetika naziri, Azərbaycan-İtaliya Hökumətlərarası Komissiyanın həmsədri Pərviz Şahbazov, İtaliyanın xarici işlər və beynəlxalq əməkdaşlıq naziri Luici Di Maio, Milli Məclisin deputatları, ADA universitetinin rəhbərliyi, müəllim və tələbə heyəti iştirak ediblər.

Azərbaycanın xarici işlər naziri Ceyhun Bayramov çıxışında İtaliya ilə Azərbaycan arasında münasibətlərin qədim tarixə söykəndiyini və hazırda yüksək səviyyədə inkişaf etdiyini qeyd edib. İki ölkənin strateji tərəfdaş olduğunu bildirən nazir Azərbaycan İlə İtaliya arasında siyasi, iqtisadi və mədəni sahələrdə geniş əməkdaşlıq gündəliyinin mövcudluğunu məmnunluqla ifadə edib. O, həmçinin bu münasibətlərin tarixində qarşılıqlı ali səfərlərin mühüm rol oynadığını ifadə edib.

Münaqişənin həlli istiqamətində İtaliyanın ədalətli yanaşma sərgilədiyini qeyd edən Ceyhun Bayramov İtaliya şirkətlərinin işğaldan azad olunmuş ərazilərdə aparılan bərpa və quruculuq işlərində fəal rol oynadıqlarını bildirib.

Ceyhun Bayramov Azərbaycan ilə İtaliya arasında iqtisadi, humanitar sahələrdə geniş əməkdaşlıq gündəliyinin mövcudluğunu vurğulayıb. Nazir COVID-19 pandemiyası ilə mübarizədə iki ölkənin bir-birinə göstərdiyi dəstəyi məmnunluqla qeyd edib.

Azərbaycanın xarici işlər naziri təhsil sahəsində iki ölkə arasında mövcud əməkdaşlığın nümunəsi kimi aprelin 2-də ADA Universitetində İtaliya-Azərbaycan Universitetinin təməlinin qoyulmasını xüsusilə vurğulayıb. O, Azərbaycan ilə İtaliya arasında mövcud dinamik tərəfdaşlığın inkişafına töhfə verəcək bu ali təhsil ocağına fəaliyyətində uğurlar arzu edib.

Nazir Luici Di Maio Azərbaycan ilə İtaliya arasında əlaqələrin dostluq və strateji tərəfdaşlıq xarakteri daşıdığını qeyd edib. O, Azərbaycanın İtaliyanın mühüm ticarət tərəfdaşlarından biri olduğunu vurğulayıb. Cari səfərin iki ölkə arasında münasibətlərin daha da inkişafına və dərinləşməsinə ciddi təkan verəcəyini bildirib. Nazir təməli qoyulan İtaliya-Azərbaycan Universitetinin təhsil sahəsində və ümumiyyətlə, ikitərəfli münasibətlərdə inkişafa müsbət töhfə verəcəyini ifadə edib.

## *Ceyhun BAYRAMOV:* "İtaliyanın Cənubi Qafqazla olan ticarət dövriyyəsinin 95 faizi Azərbaycanın payına düşür"

*"COVİD pandemiyasına qarşı mübarizədə Azərbaycan və İtaliya bir-birinə əsl dost və tərəfdaşlar kimi müxtəlif layihələr vasitəsilə yardımlar etdilər, bir-birini dəstəklədilər".*

AZƏRTAC xəbər verir ki, bunu İtaliya Respublikasının xarici işlər və beynəlxalq əməkdaşlıq naziri Luici Di Maio ilə görüşdən sonra keçirilən brifinqdə Azərbaycanın xarici işlər naziri Ceyhun Bayramov deyib.

Nazir qeyd edib ki, pandemiyanın ilk mərhələsində Azərbaycan dövləti tərəfindən İtaliyanın bir sıra klinikalarına dəstək göstərilib. Sonrakı mərhələlərdə - pandemiyanın Azərbaycana təsiri artdıqda isə İtaliyadan mütəxəssislər, həkimlər ölkəmizə gələrək xəstəliyə tutulmuş insanlara yardım ediblər.

* * *

*"2021-ci ilin yekunlarına görə, Azərbaycanla İtaliya arasında ticarət dövriyyəsi təqribən 10 milyard ABŞ dolları olub. İtaliyanın Cənubi Qafqaz ölkələri ilə olan ticarət dövriyyəsinin 95 faizi Azərbaycanın payına düşür. İtaliyanın Cənubi Qafqazdan idxal etdiyi məhsulların 50 faizindən çoxunu isə Azərbaycan təmin edir".*

AZƏRTAC xəbər verir ki, bu fikirləri İtaliya Respublikasının xarici işlər və beynəlxalq əməkdaşlıq naziri Luici Di Maio ilə görüşdən sonra keçirilən brifinqdə Azərbaycanın xarici işlər naziri Ceyhun Bayramov bildirib.

Nazir deyib ki, İtaliyadan Azərbaycan iqtisadiyyatına yatırılan birbaşa investisiyaların həcmi 770 milyon dollar təşkil edib. Uzun illər ərzində Azərbaycan İtaliya üçün birnömrəli neft və neft məhsullarının təchizatçısı olub və bu gün də belədir.

* * *

*"İtaliya minatəmizləmə sahəsində Azərbaycana əlavə dəstək göstərəcək".*

AZƏRTAC xəbər verir ki, bunu İtaliya Respublikasının xarici işlər və beynəlxalq əməkdaşlıq naziri Luici Di Maio ilə görüşdən sonra keçirilən brifinqdə Azərbaycanın xarici işlər naziri Ceyhun Bayramov bildirib.

C.Bayramov deyib ki, bu məsələ onun italiyalı həmkarı ilə bugünkü görüşündə müzakirə edilib. "İtaliya şirkətləri bu prosesdə iştirak edirlər. Luici Di Maio İtaliya şirkətlərinin bununla bağlı əlavə addımlar atacağını söylədi. Bildirdi ki, minatəmizləmə sahəsində Azərbaycanın müvafiq qurumlarına dəstək göstəriləcək", - deyə Azərbaycan XİN-in başçısı qeyd edib.

* * *

*"Birgə layihələri, Heydər Əliyev Fondu tərəfindən aparılan çoxsaylı işləri xüsusi olaraq vurğulamaq istərdim. Azərbaycan hökuməti tərəfindən İtaliyanın nadir mədəni irsinin qorunması sahəsində bir sıra layihələr həyata keçirilir".*

AZƏRTAC xəbər verir ki, bunu Azərbaycanın xarici işlər naziri Ceyhun Bayramov İtaliyanın xarici işlər və beynəlxalq əməkdaşlıq naziri Luici Di Maio ilə görüşündən sonra keçirilən mətbuat konfransında söyləyib.

Mədəniyyət sahəsində ənənəvi olaraq dostluq və geniş birgə fəaliyyətə diqqət çəkən C.Bayramov deyib: "İtaliya şirkətləri Azərbaycanda qədim tarixi abidələrin bərpasında xüsusilə məşğul olurlar. İtaliya şirkətlərinin bu sahədə zəngin təcrübəsi var".

Azərbaycanın xarici işlər naziri qeyd edib ki, bundan sonra da münasibətlərin inkişafına xüsusi diqqət yetiriləcək. Yaxın zamanlarda İtaliyada Azərbaycan Mədəniyyət Mərkəzinin açılmasının planlaşdırıldığını qeyd edən nazir hesab edib ki, bu, yubiley ili üçün çox gözəl töhfə olacaq.

* * *

*"Prezident İlham Əliyev 30 illik işğala son qoyulandan və üçtərəfli Bəyanat imzalandıqdan qısa müddət sonra tarixin bu səhifəsinin üzərindən keçməyin vacibliyini və Ermənistan-Azərbaycan münasibətlərinin normallaşması istiqamətində ciddi addımlar atmağa hazır olduğunu bəyan edib. Ona görə də Azərbaycan Ermənistanla sülh müqaviləsi ilə bağlı təkliflərini irəli sürüb".*

AZƏRTAC xəbər verir ki, bu sözləri jurnalistlərə müsahibəsində Azərbaycanın xarici işlər naziri Ceyhun Bayramov deyib.

"Ermənistan ötən bir il ərzində bu məsələ ilə bağlı Azərbaycanın addımlarına adekvat cavab verməyib. Bu il fevralın 21-də Azərbaycan tərəfi Ermənistana daha spesifik və konkret sənəd göndərib ki, bu sənəd iki dövlət arasındakı münasibətlərin normallaşmasını nəzərdə tutan beş təməl prinsipi özündə ehtiva edir. Dövlətimizin təklif etdiyi prinsiplər beynəlxalq hüquqa əsaslanır və Azərbaycan tərəfi bu barədə ictimaiyyətə geniş məlumat verib. Yəni biz bu addımla xoş niyyətimizi növbəti dəfə nümayiş etdirmişik. Ermənistan tərəfindən isə həmin təkliflərə tam uyğun olmasa da, ümumi xarakterli cavab verilib. Bizim gözləntimiz isə bir qədər fərqlidir. Onu da qeyd etmək lazımdır ki, bir neçə gündür Ermənistanın yüksəksəviyyəli rəsmiləri tərəfindən bu istiqamətdə müsbət mesajlar alırıq. Tərəflər arasında olan əlaqələr normasını ümumilikdə müsbət dəyərləndiririk",- deyə nazir qeyd edib.

Ceyhun Bayramov həmçinin bildirib ki, Azərbaycan tərəfi danışıqlarda hər zaman açıq siyasət həyata keçirir. Hesab edirik ki, aprelin 6-na təyin olunmuş görüş Azərbaycan tərəfinin mövqeyini açıq ifadə etməsi üçün növbəti imkandır.

## *Luici Di MAİO:* "İtaliyanın Azərbaycanla münasibətləri bütün sahələrdə yüksələn xətlə inkişaf edir"

"Azərbaycanla İtaliya arasında diplomatik əlaqələrin qurulmasının 30-cu ildönümü ərəfəsində keçirilən tədbirdə iştirak etməkdən məmnunluq duyuram. Ölkələrimiz arasında münasibətlər bütün sahələrdə yüksələn xətlə inkişaf edir".

AZƏRTAC xəbər verir ki, bu fikirləri Azərbaycanın xarici işlər naziri Ceyhun Bayramov ilə görüşdən sonra keçirilən brifinqdə İtaliyanın xarici işlər və beynəlxalq əməkdaşlıq naziri Luici Di Maio bildirib.

"Bu gün Azərbaycan İtaliyanın əsas tərəfdaşlarından biridir. Azərbaycanla münasibətlərimiz yüksək səviyyədədir. İtaliyanın Azərbaycanla əlaqələri yalnız enerji sahəsini deyil, iqtisadiyyatın digər sektorlarını da əhatə edir. Azərbaycan İtaliya şirkətlərinin enerji, infrastruktur və nəqliyyat sahələrinə sərmayə qoyduğu ölkələrdən biridir. Əminəm ki, bu səfərdən sonra ölkələrimiz arasında əməkdaşlıq bütün sahələrdə daha da inkişaf edəcək", - deyə nazir qeyd edib.

# Bakıda İtaliya-Azərbaycan Universitetinin təməli qoyulub

Aprelin 2-də Bakıda ADA Universitetinin kampusunda İtaliya-Azərbaycan Universitetinin təməlqoyma mərasimi keçirilib.







AZƏRTAC xəbər verir ki, təməlqoyma mərasimində Azərbaycan Respublikasının xarici işlər naziri Ceyhun Bayramov, energetika naziri Pərviz Şahbazov və təhsil naziri Emin Əmrullayev və İtaliya Respublikasının xarici işlər və beynəlxalq əməkdaşlıq naziri Luici Di Maio iştirak ediblər.

Qeyd edək ki, təməli qoyulan bu universitet Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin təşəbbüsü ilə yaradılıb. İtaliya-Azərbaycan Universitetinin yaradılması barədə razılıq Prezident İlham Əliyevin 2020-ci ildə İtaliya Respublikasına dövlət səfəri zamanı əldə olunub. İtaliya-Azərbaycan Universiteti ADA Universitetinin bazasında fəaliyyət göstərəcək.

İtaliya-Azərbaycan Universitetinin təsis edilməsinə İtaliyanın beş aparıcı ali təhsil ocağı - Luiss Universiteti, Bolonya Universiteti, Milan Politexnik Universiteti, Turin Politexnik Universiteti və Romanın Sapienza Universiteti cəlb olunub. Bu xüsusda keçən il ADA Universiteti ilə İtaliyanın adıçəkilən universitetləri arasında İtaliya-Azərbaycan Universitetinin yaradılması və bu istiqamətdə akademik əməkdaşlığa dair anlaşma memorandumu imzalanıb.

Təməlqoyma mərasimində yeni universitetin planlarını təqdim edən ADA Universitetində yaradılmış İtaliya-Azərbaycan Universiteti üzrə işçi qrupun rəhbəri Qalib Məmməd bildirib ki, burada təsis olunacaq akademik proqramlar iqtisadiyyatın strateji sektorlarını əhatə edəcək və yüksəkixtisaslı mütəxəssislər yetişdirəcək. Universitet kənd təsərrüfatı və qida sənayesi, mühəndislik, o cümlədən elektrik və elektronika, nəqliyyat və infrastruktur mühəndisliyi, memarlıq, o cümlədən şəhərsalma və landşaft memarlığı, dizayn, o cümlədən interyer dizaynı, məhsul və xidmət dizaynı, kommunikasiya dizaynı, sosial elmlər o cümlədən biznesin idarəolunması, italiyaşünaslıq, innovasiya və sahibkarlıq istiqamətləri üzrə təcrübə, nou-hau, texnologiya və innovasiyaların tətbiq olunacağı elm və bilik ocağı olacaq.

# REGİONLAR



# Çörək təknəmizin boş qalmaması üçün

## Tərtər taxılçıları bütün imkanlarını səfərbər ediblər

Çörək dünyada yaşayan bütün xalqlar üçün müqəddəs nemətdir. Azərbaycan xalqı da istisna deyil. Bizdə də çörək müqəddəs və əvəzsiz nemət sayılır. Yerə düşmüş çörəyi götürüb öpərək gözümüzün üstünə qoyan, ona and içən biz deyilikmi?!

30 ildən artıq bir müddətdə torpaqlarımızın 20 faizdən çoxu işğal altında olduğu və bu gün də onların minalardan təmizlənməsi işi davam etdiyinə görə ölkəmiz özünü tam şəkildə bu qiymətli ərzaq məhsulu ilə təmin edə bilmir. İndiyədək taxılı əsasən Rusiyadan və Ukraynadan idxal etmişik. Hazırda bu ölkələr arasında baş verən məlum hadisələr üzündən biz öz ölkəmizdə taxıl istehsalına daha ciddi fikir verməli, mövcud əkin sahələrinin məhsuldarlığını artırmalıyıq.

Hazırda taxıl əkinlərinin becərilməsi davam edir. Tərtər Rayon Aqrar İnkişaf Mərkəzinin əməkdaşları vaxtaşırı fermerlərlə görüşür, onlara məsləhətlər verir, həmçinin mərkəzdə mütəxəssislərin iştirakı ilə seminarlar təşkil edirlər.

Keçən ilin məhsulu üçün rayonda 8800 hektar sahədə taxıl toxumu əkilmişdi. Bunun 5295 hektarı buğdanın, 3505 hektarı isə arpanın payına düşürdü. Ötən il rayon üzrə məhsuldarlıq 40,6 sentner olmaqla hər hektardan 42,9 sentner buğda, 37,9 sentner arpa götürülüb. Hektardan 40 sentnerdən artıq məhsul götürən fermerlərdən Emin Qurbanovun, Fazil Vəliyevin, Habil İbrahimovun təcrübəsi göstərir ki, tərtərlilər taxılın becərilməsində zəngin təcrübə toplayıblar və bu işi daha da inkişaf etdirmək üçün potensial imkanlar var. Dövlət dəstəyi taxılçılığa marağı daha da artırır. Belə ki, ötən il hər hektar buğda sahəsinə görə 200, arpanın hər hektarına görə isə 160 manat subsidiya verilib.

Ötənilki uğurlardan danışarkən bir məsələni də qeyd etmək lazımdır. Tərtərdə bu sahədə iri və orta fermerlər olsa da, taxıl əsasən kiçik pay torpaqlarında, ailə təsərrüfatlarında əkilir. Hamının təknəsində çörək olması arzusundan onlar ildən-ilə növbəli əkinə fikir vermir, yalnız buğda və ya arpa əkir, gübrələrdən, ziyanvericilərə qarşı dərman vasitələrindən istifadə etmirdilər ki, bu da nəticədə torpaqların məhsuldarlığının aşağı düşməsinə gətirib çıxarmışdı. Amma son illər aparılan maarifləndirmə tədbirləri öz nəticəsini verməkdədir. Artıq nəinki iri, eləcə də kiçik təsərrüfatlarda növbəli əkinə əməl olunur, eyni zamanda lazımi aqrotexniki tədbirlər vaxtında yerinə yetirilir.

Ötən ilin payızında Tərtərdə 2022-ci ilin məhsulu üçün 8706 hektarda taxıl toxumu əkilib ki, onun da 4276 hektarı buğda, 4430 hektarı isə arpadır. Aqrar İnkişaf Mərkəzinin bitkiçilik sektorunun müdiri Arif Behbudov söhbət zamanı bildirdi ki, qış aylarında havalar o qədər əlverişli keçməsə də, bitiş suyunun verilməsində çətinliklər olmadı: "Taxıl sahələri həm subartezian quyularının vastəsilə, həm də son iki ildə Suqovuşan su anbarından arxlarımıza gələn su vastəsilə suvarıldı. Bu sudan xüsusilə Hüsənli, Azadqaraqoyunlu, Mamırlı, Yuxarı Qapanlı kəndlərinin fermerləri daha çox istifadə edirlər".



Taxılçılıqda məhsuldarlığa təsir edən daha bir yenilik isə xaricdən gələn gübrələrdən asılılığın aradan qaldırılması ilə bağlıdır. Hazırda ölkəmizdə istehsal olunan karbomid gübrəsindən istifadə edilir ki, bunun da taxıl bitkisinin kollama fazasında verilməsi olduqca vacibdir. Gübrə verilməsindən sonra sahələrə ziq-zaq mala çəkilir. Bu da havalanma prosesini yaxşılaşdırır. Zərərvericilərə qarşı mübarizədə isə fermerlər özləri diqqətli olmalıdırlar. Taxıl zəmiləri vaxtaşırı yoxlanılıb, rast gələnən zərərvericilərə qarşı vaxtında lazımi tədbirlər görülməlidir.

Arif Behbudov onu da bildirdi ki, cari ildə həm buğda, həm arpa əkinlərinin hər hektarı üçün 210 manat subsidiya veriləcək. Dövlət tərəfindən verilən subsidiyalar artıq fermerlərin kartlarına köçürülüb və bu iş davam edir.

Taxılçılıq hər zaman Tərtərin iqtisadiyyatının əsasını təşkil edib. Lakin bugünkü reallığın fonunda bu məsələ daha da aktuallaşıb. Odur ki, həm fermerlər, həm də bu sahənin mütəxəssisləri cari ilin məhsulu üçün sözün həqiqi mənasında inamlı mübarizə aparmalıdırlar.

**Lazım QULİYEV,**
**"Azərbaycan"**

## ABŞ səfiri Lənkəranda olub

ABŞ-ın Azərbaycandakı fövqəladə və səlahiyyətli səfiri Örl Litzenberqer Lənkəranda tanışlıq səfərində olub. Səfər proqramı çərçivəsində qonaq əvvəlcə Lənkəran Şəhər İcra Hakimiyyətinin başçısı Taleh Qaraşovla görüşüb.

Görüş zamanı ŞİH-in başçısı xarici diplomata rayonun tarixi, coğrafi mövqeyi, ictimai-siyasi və sosial-iqtisadi həyatı barədə ətraflı məlumat verib.

Səmimi görüşə və xoş söhbətə görə təşəkkür edən səfir Azərbaycan Prezidenti İlham Əliyevin həyata keçirdiyi xarici siyasəti yüksək dəyərləndirərək bu siyasətin ABŞ-la Azərbaycan arasındakı əlaqələrin etibarlı partnyorluq səviyyəsinə yüksəlməsindəki rolunu qeyd edib. Qonaq Azərbaycandakı fəaliyyəti müddətində bundan sonra da Azərbaycan-ABŞ əlaqələrinin möhkəmlənməsinə səy göstərəcəyini bildirib.

Sonra qonaq Lənkəran Dövlət Universitetində rektor, bir qrup müəllim və tələbələrlə görüşüb, burada yeni təşkil olunan Amerika guşəsinin, eləcə də universitetin nəzdində ABŞ-ın USAİD qeyri-hökumət təşkilatının kompüter mərkəzinin açılışında iştirak edib.

**Ağaddin BABAYEV,**
**"Lənkəran" qəzetinin əməkdaşı**

## Bu ayın ikinci ongünlüyündən çiyid səpininə başlanılacaq

"Aprel ayının ikinci ongünlüyündən başlayaraq pambıqçılıq rayonlarında çiyid səpininə start veriləcək. Əkinə hazırlıq prosesinin düzgün təşkili mövsümün sonunda fermerlərə daha çox gəlir əldə etməyə imkan verir".

Bunu Kənd Təsərrüfatı Nazirliyinin Aparat rəhbəri Rəfail Quliyev bölgələrdə yazlıq əkinlərə hazırlıq dövründə fermerlərlə keçirilən silsilə görüşlərdə deyib. Beyləqan, İmişli, Ağcabədi və digər rayonlarda keçirilən görüşlərdə bildirilib ki, dövlət tərəfindən pambıqçılığın inkişafı məqsədilə dəstək tədbirləri davam etdirilir. Aqrar Subsidiya Şurası məhsul istehsalını stimullaşdırmaq məqsədilə pambıqçılığa subsidiyaların verilməsi qaydalarında dəyişiklik edib. Bu ildən fermerlər təhvil verdikləri pambığa görə yalnız məhsul subsidiyası alacaqlar. Fermerlərə təhvil verdikləri pambığın hər tonuna görə 170 manat subsidiya ödəniləcək. Məhsul subsidiyası almaq üçün fermerlərin torpaq mülkiyyətindən asılı olmayaraq, EKTİS-də öz əkinlərini bəyan etməsi kifayətdir.

## Sumqayıt xəbərləri

### Şagirdlər şəhid ailəsini ziyarət ediblər

Milli-mənəvi birliyimiz, Vətən ogullarının doğma el-obaya sədaqəti, mərdliyi və mətinliyi 44 günlük müharibədə özünü bir daha göstərdi. Milli ləyaqətimiz məhz xalqın qiymətli potensialı olan belə ogulların çiyinlərində yüksəlir.

Torpaqlarımızı erməni işğalından azad edərkən şəhid olan əsgərlərimizdən biri də Əhmədəliyev Kərim Rövşən ogludur. Kərim mərd, cəsur, ölümün gözünə dik baxan ogullardan idi. O,1998-ci ildə iyun ayının 12-də Sumqayıt şəhərində anadan olub. Orta təhsilini 2005-2016-cı illərdə Sumqayıt şəhər 5 nömrəli məktəbdə alıb. 2016-2020-ci illərdə Azərbaycan Texnologiya Universitetində ali təhsilini başa vuran Kərim həmin ilin iyununda vətənə borcunu yerinə yetirmək üçün hərbi xidmətə yollanıb.

Vətən müharibəsi başlayanda ordu sıralarında olan Kərim ilk döyüşə Agdam-Tərtər-Agdərə istiqamətindən başlayıb, Suqovuşanın azadlığı uğrunda gedən döyüşdə şəhidlik zirvəsinə ucalıb.

Bu gün Sumqayıtda yerləşən bir çox məktəbdə Kərim Əhmədəliyevin adını daşıyan siniflər mövcuddur. Onlardan biri də Sumqayıt şəhər Adil İbrahimli adına 14 nömrəli tam orta məktəbin 7 "ç" sinfidir. Bu günlər həmin sinfin şagirdləri, onların valideynləri, sinif rəhbəri şəhidin ailəsini ziyarət ediblər. Şəhidin anası Tamilla xanım qonaqlara Kərimin uşaqlığından, sonrakı həyat yolundan danışıb. Görüşdə şəhidin adına bəstələnmiş "Sonunu düşünən qəhrəman olmaz" adlı mahnı səsləndirilib, şagirdlər tərəfindən Kərimin adına yazılmış şeirlər söylənib. Sinif rəhbəri Ülviyyə Əliyeva "Mənim qəhrəmanım Kərim Əhmədəliyev" adlı kitabını şəhidin anasına təqdim edib.

### "Qarabağa dönüş" adlı sərgi keçirilib

Sumqayıt şəhər Heydər Əliyev Mərkəzində Xidmət Sahələri üzrə Sumqayıt Dövlət Peşə Təhsil Mərkəzinin tələbələrinin əl işlərindən ibarət "Qarabağa dönüş" adlı sərgi təşkil olunub.

Azərbaycanda 2022-ci ilin "Şuşa ili" elan edilməsi ilə bağlı təşkil olunmuş sərgidə Peşə Təhsil Mərkəzinin tələbələrinin əl işlərindən ibarət Qarabağ xanlarının obrazları, onların geyimləri böyük maraq doğurub. Dərzi ixtisası üzrə təhsil alan tələbələrin hazırladıqları Qarabağın geyimləri də iştirakçılar tərəfindən maraqla qarşılanıb. Sərgidə həmçinin aşpaz ixtisası üzrə təhsil alan tələbələrin Qarabağ mətbəxinə dair hazırladıqları 36 xörək və şirniyyat növü nümayiş olunub. Bunlardan başqa, kompüter operatoru, bərbər, vizajist, manikürçü ixtisası üzrə təhsil alan tələbələr xüsusi güşələrdə əl işlərini nümayiş etdiriblər. Bəzi iştirakçılara elə buradaca xidmət göstərilib. Sərgidə o da bildirilib ki, tezliklə daha bir neçə sərginin təşkili nəzərdə tutulub.

**Akif ƏLİYEV,**
**"Azərbaycan"**

## Köməyə subartezian quyuları gəlir

Cəlilabad ölkənin böyük kənd təsərrüfatı rayonlarındandır. Rayonun həyətyanı torpaq sahəsi ilə birlikdə ümumi əkin sahəsi 75 min 886 hektardır.

Bunun 11 min 310 hektarı suvarılandır. Suvarma işləri isə əsasən mənbəyini Araz çayından götürən Cənub-Muğan kanalı vasitəsilə həyata keçirilir. Biləsuvar rayonunun ərazisindən keçib gələn bu kanalla Cəlilabad ərazisinə saniyədə 5 kubmetr su ötürülməlidir. Su azlığı səbəbindən keçən il kanalla rayona saniyədə orta hesabla 2 kubmetr su verilmişdir.

Belə vəziyyət həm cəlilabadlı fermer və torpaq mülkiyyətçiləri, həm də Cəlilabad və Biləsuvar rayonlarının əlaqədar təşkilatları arasında söz-söhbətin yaranmasına səbəb olmuşdur. Muğan zonasında suvarma suyuna tələbat əsasən mart-iyul ayları arasında olur. Mart ayında yağan yağışlar Cəlilabad rayonunda dəmyə taxıl sahələrini suvararaq dirçəltmişdir. Lakin bir azdan kartof, çiyələk, üzüm və digər bitkilərin suvarılması zamanı yetişəcək. Dediyimiz kimi, Cənub-Muğan kanalı ilə gələn su az olduğu üçün tələbatı ödəmir. Bu işdə subartezian quyuları həm içməli su, həm də kənd təsərrüfatı bitkilərinin suvarılması baxımından insanların köməyinə çatır.



Hazırda ölkə başçısının sərəncamına əsasən rayonun Boyxanlı, Cəfərxanlı, Xəlilabad, Komanlı, Təzəkənd kəndlərində yeni subartezian quyuları qazılır. Bu il daha bir yaşayış məntəqəsində - Üçtəpə kəndində bir quyu qazılması planlaşdırılıb. Mütəxəssislərin dediyinə görə, daha 30 belə quyuya ehtiyac var.

Yəqin ki, nəzərdə tutulan həmin quyular da qazılıb əhalinin istifadəsinə veriləcək. Bunlar isə öz növbəsində əhalinin içməli suya olan tələbatını ödəməklə yanaşı, daha çox və keyfiyyətli kənd təsərrüfatı məhsullarının yetişdirilməsinə öz töhfəsini verəcək.

**Seyran CAVADOV,**
**"Azərbaycan"**



## Gədəbəyin balı da adı ilə tanınır

Təbii iqlimi, zəngin bitki örtüyü ilə seçilən Gədəbəydə arıçılığın inkişafı üçün hər cür şərait var. Bu şəraitdən istifadə edən rayon sakinləri son illər iqtisadi cəhətdən səmərəli olan arıçılığa daha çox maraq göstərir, məhsuldar arı ailələrinin artırılması üçün tədbirlər görürlər. Arıçılığın inkişafı ilə əlaqədar dövlət tərəfindən verilən subsidiya da rayonda sahənin inkişafına əlavə stimul verir.

Gədəbəy Aqrar İnkişaf Mərkəzinin direktoru Asəf Nağıyevlə söhbət zamanı məlum oldu ki, rayonda 336 nəfər arıçılıqla məşğul olur və onlar ümumilikdə 10 min 970 arı ailəsinə qulluq edirlər. Keçən il rayon arıçılarının zəhməti hədər getməmişdir. Onlar nəzərdə tutduqlarından çox - 70 tondan artıq bal istehsal etmişlər. Bu artımda Prezidentin müvafiq sərəncamına uyğun olaraq arıçılığın inkişafının stimullaşdırılması məqsədilə saxladıqları hər arı ailəsinə görə təsərrüfat sahiblərinə verilən subsidiyanın rolu böyük olmuşdur. Yeri gəlmişkən qeyd edək ki, bu il də həmin sərəncama əsasən Gədəbəy arıçılarına 109 min 700 manat subsidiya verilmişdir.

Rayonda istehsal olunan balın satışında da problem yoxdur. Elə arıçılar var ki, öz məhsullarını Bakıda təşkil olunan yarmarkalarda satışa çıxarırlar. Keçən il rayon arıçılarından 4 nəfər demək olar ki, bütün məhsullarını yarmarkada satmışlar. Bəzilərinin isə istehsal etdikləri balı elə qapıdaca alırlar. Dəyirmandağ kəndinin sakini Rafiq Nağıyev kimi. Rayon mərkəzindən o qədər də uzaq olmayan bu kənddə yaşayan Rafiqin qapısı daim müştəri ilə dolu olur. Çünki bilirlər ki, onun istehsal etdiyi bal olduqca keyfiyyətli və təmizdir. Hazırda Rafiq Nağıyev 35 arı ailəsinə qulluq edir.

Rayonda bu gəlirli sahənin sirlərini dərindən bilən çoxlu arıçı var. Onlardan Slavyanka kəndinin sakinləri Oruc və Arzu Rzayevləri, eləcə də İsaalı kəndinin sakini Əjdər İsmayılovu və Kiçik Qaramurad kəndinin sakini Arzu Tanarquliyevi misal göstərmək olar.

Qoşabulaq kəndinin sakini Hafiz Əhmədov da uzun illərdir arıçılıqla məşğul olur. O, keçən il 55 arı ailəsinə baxırdısa, bu il onların sayını 60-a çatdırıb. Ötən il 600 kiloqramdan çox bal əldə edən Hafiz cari ildə bu rəqəmi 700 kiloqrama çatdırmağı qarşısına məqsəd qoyub. Deyir ki, bunun üçün hər cür imkan və şəraiti var.

Dəyirmandağ kəndinin sakini Asəf Nağıyev arıçılıqla dədə-babadan məşğul olur. Hazırda 45 arı ailəsinə qulluq edir. Keçən il 400 kiloqramdan çox bal istehsal edən arıçı bu il məhsulunun daha çox olacağını deyir. İstehsal etdiyi balın keyfiyyəti yüksək olduğundan satışda da problemlə üzləşmir.

Rayonda arıçılardan söz düşəndə Arıqıran kəndinin sakini Yəhya İsgəndərovun da adını çəkirlər. Son bir neçə il ərzində arı ailələrinin sayını 102-yə çatdıran Yəhya İsgəndərov bal istehsalını ilbəil artırır.

Gədəbəy həm də qonaq-qaralı yerdir. Rayonun əsrarəngiz təbiətindən zövq almaq üçün hər il minlərlə turist istirahət günlərini burada keçirir. Xüsusilə yay aylarında Gədəbəydə dincələn istər yerli və istərsə də xarici turistlər evlərinə balsız qayıtmırlar. Onlar bəzən balın süzülməsini öz gözləri ilə görür, prosesdə iştirak edirlər. Bu isə o deməkdir ki, hər bir alıcıda balın təmizliyinə şübhə qalmır.

İndi Gədəbəy təbiətinin oyanan çağıdır. Qar altından boylanan al-əlvan çiçəklər insanın ruhunu oxşayır. Söz yox ki, bir azdan arılar bu çiçəklərə qonaraq min bir dərdin dərmanı olan bal toplamağa başlayacaqlar. Odur ki, arıçılar indidən geniş hazırlıq işlərinə başlamışlar. Arının dilini bilən arıçılar çalışırlar ki, mövsümə hazırlıq işlərini yüksək səviyyədə və vaxtında başa çatdırsınlar.

**Sabir ƏLİYEV,**
**"Azərbaycan"**



Cari ilin ilk 2 ayı üzrə kənd təsərrüfatının ümumi məhsulunun faktiki qiymətlərlə dəyəri 774,7 milyon manat təşkil edib. Bunun 733,5 milyon manatı heyvandarlıq, 41,2 milyon manatı bitkiçilik məhsullarının payına düşüb.

## Bitkiçilik və heyvandarlıq məhsulları istehsalında artım var

Dövlət Statistika Komitəsinin bu məlumatında həmçinin bildirilir ki, əvvəlki ilin müvafiq dövrü ilə müqayisədə kənd təsərrüfatının istehsalı 3,1, o cümlədən heyvandarlıq məhsulları üzrə 2,5, bitkiçilik məhsulları üzrə 14,1 faiz artıb. Ölkənin əksər rayonlarında artıq yazlıq bitkilərin əkininə başlanılıb. Martın 1-nə kimi 53,4 min hektar sahədə yazlıq bitkilər, o cümlədən 7,5 min hektar sahədə dənlilər və dənli paxlalı bitkilər (qarğıdalı daxil olmaqla), 14,4 min hektar sahədə kartof, 10,3 min hektar sahədə tərəvəz, 21,1 min hektar sahədə çoxillik otlar, 0,1 min hektar sahədə digər bitkilər əkilib. Təsərrüfatlarda yanvar-fevral aylarında 39,2 min ton, yaxud keçən ilin eyni dövrünə nisbətən 16,6 faiz çox tərəvəz məhsulları istehsal edilib.

Bu ilin ilk 2 ayında quş əti də daxil olmaqla diri çəkidə 87,9 min ton ət, 318,8 min ton süd, 306,3 milyon ədəd yumurta istehsal olunub. 2021-ci ilin müvafiq dövrü ilə müqayisədə ət istehsalı 3, süd istehsalı 1,5, yumurta istehsalı 1,6 faiz artıb.

Keçən il Ekologiya və Təbii Sərvətlər Nazirliyi yanında Meşələrin İnkişafı Xidməti tərəfindən 9328,2 hektar meşə fondu sahələrində meşəbərpa tədbirləri həyata keçirilib. Görülmüş tədbirlər çərçivəsində 512,2 hektar sahədə meşə əkinləri, 197 hektar sahədə meşə səpinləri işləri aparılıb, 64 hektarda meşə-bağlar, 5 hektarda tez böyüyən ağac cinslərindən ibarət sənaye əhəmiyyətli plantasiyalar salınıb. 8550 hektar sahədə təbii bərpaya kömək göstərilib. Bunlardan əlavə, səpin sahələrində 14,3 hektar sahəyə toxumlar səpilib, 3,8 hektar çilik köklənditməsi sahələrinə 185 min ədəd çilik basdırılıb.

Keçən il meşə fondu sahələrindən 45,7 ton meyvə və meşə ağac toxumları tədarük edilib.

# İbrət dərsləri

## Nəriman NƏRİMANOV: "Bakı şəhəri üzrə üç gün vəhşiləşmiş daşnakların dəhşətli azğınlığı baş verdi"

31 Mart soyqırımı ilə bağlı tarixi həqiqətlərin öyrənilməsi üçün hazırda ən mühüm mənbələrdən biri Azərbaycan Xalq Cümhuriyyəti hökuməti tərəfindən bu cinayətin araşdırılması məqsədilə yaradılmış Fövqəladə Təhqiqat Komissiyasının sənədləridir. Həmin araşdırmalar 1918-ci ilin martında dinc azərbaycanlılara qarşı törədilən kütləvi qırğınlarda Bakı Sovetinin 6 min silahlı əsgərinin, eyni zamanda "Daşnaksütyun" partiyasının 4 minlik silahlı dəstəsinin iştirak etdiyini göstərir. Bu halda o dövrdə bolşevik ideyalarına bağlı olan və Azərbaycanda bu ideyaları yayanlarla eyni cəbhədə qərar tutan tanınmış azərbaycanlıların bu hadisələrə münasibəti, xalqımıza qarşı soyqırımı ilə bağlı tutduqları mövqe, təbii ki, sual doğurmaya bilməz. Xüsusilə görkəmli ictimai-siyasi xadim, dövlət adamı Nəriman Nərimanovun bununla bağlı fəaliyyəti böyük maraq yaradır. Bu şəxsiyyət Azərbaycan tarixinin ən parlaq siyasi xadimlərindən biridir.

N.Nərimanovun siyasi əqidəsi və partiya mənsubiyyətindən asılı olmayaraq onun xalqımız, tariximiz üçün gördüyü işlər misilsizdir. Tarixi torpaqlarımıza haqsız erməni iddialarının irəli sürülməsi ilə əlaqədar Ermənistan-Azərbaycan qarşıdurmasının tənzimlənməsində Nərimanovun rolu xüsusi qiymətləndirilməlidir. Ona görə də bu suala cavab ardınca onun ömürlüyünə müraciət edərkən daim millətinin təəssübünü çəkən insanın o günlərin çox ağır şərtləri daxilində xalqımızın haqları uğrunda çalışdığını, şəxsi taleyini zamanın burulğanına ataraq həqiqətləri dilə gətirməkdən, lazımi ünvanlara çatdırmaqdan, yazaraq sənədləşdirməkdən çəkinmədiyini görürük.

Nəriman Nərimanov Şaumyanın başçılıq etdiyi Bakı Soveti tərəfindən bolşevik bayrağı altında azərbaycanlılara qarşı aparılan soyqırımı siyasətini yazılarında - "Ucqarlarda inqilabımızın tarixinə dair" əsərində, "Qafqazın işğalına baxış", "Biz Qafqaza hansı şüarlarla gedirik", "Necə etmək lazımdır ki, vətəndaş müharibəsi milli xarakter almasın", "İnqilab və əksinqilab, inqilabçı və əksinqilabçılar", "Şərq məsələsi", "Azərbaycanda vəziyyət" və s. məqalə və məktublarında, çıxışlarında kəskin tənqid edir, sovetlərin müstəmləkə siyasətinə mənfi münasibət bildirirdi. Bolşevik siyasətinin onun düşüncələrindəkindən daha çox zora əsaslanaraq həyata keçirilməsinə qarşı çıxırdı. O, 1918-ci ilin martında baş verə biləcək faciələrin qarşısını almaqdan ötrü S.Şaumyanı və onun həmfikirlərini silaha əl atmaqdan çəkindirməyə çalışırdı. Şahid xatirələri onun mart hadisələrindən hələ 4 gün əvvəl Şaumyana müraciət edərək silahlı toqquşmaya yol verməməyi ondan xahiş etdiyini göstərir.

1919-cu ilin fevralında yazmış olduğu "Biz Qafqaza hansı şüarlarla gedirik" məqaləsində Nəriman Nərimanov 1918-ci ilin əvvəllərində Bakıda birinci müsəlman atıcı alayının təşkil edilməsi üçün bura gəlmiş general-mayor Talışinskinin və onunla birgə bir neçə qərargah zabitinin həbsi faktına toxunurdu. Nərimanov milli zəmində qarşıdurmanın yaranmaması üçün onların dərhal azadlığa buraxılmasını tələb edirdi. Məqaləsindən oxuyuruq ki, bu tələbin qarşılığında İnqilabı Müdafiə Komitəsi rəhbərlərindən I.Suxarsev Nərimanova özü kommunist ola-ola əksinqilabçı generalın azad edilməsini istəməsini irad tuturdu. "Mən ona cavab verdim: Mən generalı azad etmək istəmirəm, mən fəlakətdən xilas olmaq istəyirəm", - deyə doktor Nərimanov yazır.

N.Nərimanova bəlli idi ki, əgər general Talışinski azad olunmasa, vətəndaş müharibəsi başlanacaq. Yenə həmin məqaləsində o, soyqırımından saatlar əvvəl - birinci atışmaya beş saat qalmış öz mənzilində bir neçə kəndli partiyasının nümayəndələri və "Hümmət" Partiyasının fəal üzvləri ilə birgə yığıncaq keçirdiklərini yazır. Həmin yığıncağa Şaumyan da dəvət olunmuşdu. N.Nərimanov burada da S.Şaumyana silahlı mübarizəyə başlamamaq barədə fikirlərini israrlı şəkildə çatdırır. Bildirirdi ki, belə bir mübarizə başlasa, bu, milli xarakter alacaq. Müzakirələr zamanı Nərimanov müsəlman əsgər və zabitlərdən təşkil olunan "Dikaya diviziya"dan bolşeviklərin aldıqları silahların "Hümmət" Partiyasının nəzarətinə verilməsini təklif etmişdi. S.Şaumyan da üzdə guya bununla razılaşmışdı. Amma sonra erməni silahlı dəstələrinə azərbaycanlılara qarşı atəş açmaq əmrini vermişdi. A.Caparidze və S.Şaumyan riyakarlıqlarını sonralar da davam etdirərək soyqırımının günahını azərbaycanlıların üzərinə atmışdılar.

### Daşnak- bolşeviklərin "qara oyunları"

Azərbaycanlılara qarşı nifrət hissi ilə gözlərini qan örtmüş daşnaklar mart qırğını günlərində N.Nərimanovu və ailə üzvlərini qətlə yetirmək üçün onun evinə də basqın etmişdilər. Qardaşı həbs olunmuş, özü isə təsadüf nəticəsində, gizlənərək quldur daşnaklardan qurtulmuşdu. N.Nərimanov yazır: "Bir saatdan sonra Şaumyan məni ailəmlə birlikdə "Sovet hakimiyyətinin müdafiəçiləri" olan daşnaklardan xilas edir". Bunun özü də maraqlı fakt idi ki, qırğına əksinqilaba qarşı mübarizə adı qoyan daşnak-bolşeviklər həmin günlərdə azərbaycanlıları qətlə yetirərkən onların siyasi mənsubiyyətinə məhəl qoymurdular. Milli mənsubiyyət amili onların qətli üçün kifayət edirdi. 1918-ci il aprelin 1-də Bakı Xalq Komissarları Sovetinin Zaqafqaziya kəndli və fəhlələrini mübarizəyə çağıran müraciətində göstərilirdi ki, düzdür, Bakıda müsəlman yoxsullarından ölənlər var idi, lakin onlar bəy və xanlar tərəfindən aldadılaraq, sovet hakimiyyətinə qarşı çıxış edən qara kütlələr idi. Göründüyü kimi, S.Şaumyan öz cinayətkar əməllərini ört-basdır etmək üçün günahı dinc insanların boynuna qoyurdu. 1918-ci ilin martında Bakı şəhərində ermənilərin azərbaycanlılara qarşı törətdikləri kütləvi qırğınlarda ölən minlərlə insan S.Şaumyan üçün "qara kütlə" idi. N.Nərimanov dolayısı ilə rus və erməni burjuaziyasının bu hadisələrə münasibətdəki riyakarlığına da toxunur. Yazır ki, onlar guya bu müharibəyə qarışmırdılar və özlərini bitərəf elan etmişdilər. Onu da xüsusi qeyd edirdi ki, "bütün bunlar məni ilk vaxtlar erməni yoldaşları yüksək vəzifələrə təyin etməmək barəsində danışmağa məcbur edirdi. Bununla belə lap əvvəldən bu günə kimi BK elə bil qəsdən Mikoyan, Sərkis və Mirzoyan tərəfindən tutulur. Axırıncı, yəni Mirzoyan, artıq daha cəsarətlə fəaliyyət göstərir".











Nəriman Nərimanov və başqa "hümmət"çilər öz məqalə və çıxışlarında, müraciətlərində mart hadisələrini daim milli qırğın kimi səciyyələndirirdilər. "Hümmət" Partiyasının mətbuat orqanı olan "Hümmət" qəzeti 1918-ci ildə çıxmış 37-ci nömrəsində mart hadisələri ilə bağlı bir məktub dərc etmişdi. Məktubda əvvəlcə siyasi xarakter daşıyan mübarizənin sonradan milli xarakter aldığı deyilirdi: "Biz bolşevik kimi imkan verməik ki, müsəlman yoxsullarının günahsız axan qanları nəticəsiz qalsın. Biz var qüvvəmizlə çalışacağıq ki, müsəlmanlara qarşı törədilən bütün bu nanəcibliyi aşkar edək".

Nəriman Nərimanov 1923-cü ildə yazdığı məktubda mart qırğınlarının təhlilini verir və çox təəssüflə bildirirdi: "...Mən sübut etməyə çalışırdım ki, vətəndaş müharibəsini indiki vaxtda başlamaq təhlükəlidir, belə ki, o, milli qırğına çevrilə bilər. Mən bunu ona görə deyirdim ki, o zaman Bakıda ancaq daşnaklardan ibarət olan çoxsaylı erməni hərbi hissəsi yerləşirdi. Bakı şəhəri üzrə üç gün vəhşiləşmiş daşnakların dəhşətli azğınlığı baş verir. Nəticədə daşnaklar, yəni "Sovet hakimiyyətinin müdafiəçiləri" əliuşaqlı müsəlman qadınlarını əsir götürürlər... Burada bizim müdafiəçilərimiz haqqında susmaq lazım gəlir".

### "Qafqazın işğalına baxış"

N.Nərimanovun 1918-ci il aprelin 3-də Şaumyana və Caparidzeyə göndərdiyi daha bir məktubu mart qırğınları zamanı Bakıdakı sovet hakimiyyətinin yürütdüyü siyasətə qarşı kəskin tənqid ruhundadır. O, məktubda mart qırğınlarının sovet hakimiyyətinə böyük bir ləkə olduğunu və tezliklə bu qara pərdəni götürmək mümkün olmasa, onda bolşevik şüarı ilə sovet hakimiyyətini burada saxlamağın mümkünsüzlüyünü göstərmişdir: "Siz müsəlman əhalisinə sübut etməlisiniz ki, mart qırğınları sizin Sovet hakimiyyəti istəyinin əleyhinə olaraq baş vermişdir. Bu işi satqınlar və sovet quruluşunun düşmənləri təşkil etmişdir. Bununla Qafqaz və Bakının müsəlmanlarına sübut etmiş olarsınız ki, Sovet hakimiyyəti qaniçən daşnakların əlində deyil. Əks təqdirdə Bakıda və Qafqazda Sovet hakimiyyətinə dərin quyu qazmış olacaqdır".

Həmçinin Bakı qırğınından sonra Azərbaycanın başqa qəzalarında buna bənzər qırğınların qarşısının alınmaması üçün Nəriman Nərimanov yazırdı ki, sovet hakimiyyəti üçün müsəlman əhalisi tərəfindən heç bir təhlükə yoxdur. Müsəlmanlar hakimiyyəti səmimi-qəlbdən qəbul ediblər, onlar sülh tərəfdarıdırlar. Buna rəğmən S.Şaumyan və A.Caparidze Azərbaycanın regionlarında da sülhpərvər azərbaycanlıların üzərinə Lalayev, Əmirov, Hamazasp kimi qaniçənlərin başçılığı ilə cəza dəstələri göndərmiş, bölgələrdə də on minlərlə soydaşımızı qətlə yetirmişdilər.

Nəriman Nərimanov hiddət içində yazırdı: "Lakin belə bir dəhşətli hadisədən sonra onun qəzalar üzrə həyata keçirilməsini davam etdirmək nəyə lazım idi? Bax, suala 1918-ci ildə Bakıdakı Sovet hakimiyyəti cavab verməlidir". Mart soyqırımına münasibətini o, "Qafqazın işğalına baxış" adlı məqaləsində də şərh etmişdir: "Tutaq ki, Bakıdakı mart hadisələrini vətəndaş müharibəsi kimi təsəvvür edək. Onda daşnak Əmirov və Styopa Lalayevin Şamaxıda törətdikləri əməlləri necə adlandırmaq olar? Vicdansız, mənfur Lalayevin Şamaxıdakı hərəkətlərini vətəndaş müharibəsi hesab etmək olarmı? O, müsəlman qadın və uşaqları məscidə yığıb ... sonra isə məscidi yandırmışdı".

### Daşnak xisləti: xəyanət və satqınlıq

"Qafqazın işğalına baxış" məqaləsində N.Nərimanov ermənilərin Şamaxı qəzasında azərbaycanlılara qarşı həyata keçirdikləri dəhşətli qırğınla bağlı yazırdı: "Şamaxıdan qayıdan Məşədi Əzizbəyov gözlərindən yaş axa-axa şahidi olduğu faciə haqqında danışanda mənim üçün aydın oldu ki, Bakıda Sovet hakimiyyəti daşnakların əlindədir. Bizim cəza dəstələrimizin adı altında erməni soyğunçu dəstələri müsəlman əhalisinə qarşı o cür qəddarlıqlardan sonra təbiidir ki, müsəlman proletariatı Sovet hakimiyyətindən üz döndərməkdə tamamilə haqlı idi".

İctimai-siyasi xadim daşnakların məkrli siyasətini həmin məqalədə bu cümlələrlə xüsusi vurğulayırdı: "...Daşnaklar özlərinin otuz illik siyasi həyatları ərzində göstərdilər ki, onlar "böyük Ermənistan" haqqındakı arzularını həyata keçirmək üçün istənilən halda sifətlərini dəyişə bilərlər. Daşnaklar Qolitsinin dövründə (Rusiya imperiyasında Nazirlər Sovetinin sədri olmuşdur) inqilabi partiya hesab olunurdular, Vorontsov-Daşkovun dövründə onun ayaqlarını öpürdülər və ən qatı əksinqilabçı idilər. Bunun səbəbi onda ki, Vorontsov müharibədən sonra "böyük Ermənistan" yaratmağa söz vermişdi. Əgər indi Qafqazda sovet hakimiyyəti qurularsa, onda daşnaklar o saat sifətlərini dəyişib, bu dəfə kommunist olacaqlar. Yenidən Azərbaycanda və Gürcüstanda iş başında duracaqlar... Daşnaklar əllərində "böyük Ermənistan" xəritəsi və dəqiq proqramla Peterburqda oturmuşdular. Onlar "böyük Ermənistan" yaratmaqla məşğul idilər. Hətta gürcü millətçiləri daşnakların bu həyasız və utanmaz hərəkətlərindən həyəcanlanmışdılar. Tam əminliklə elan edirəm ki, o vaxtlar Rusiyada mövcud olan heç bir milli partiya daşnaklar kimi bu qədər xəyanət və satqınlıq etməmişdir".

Tarix üzrə fəlsəfə doktoru Vaqif Abışov Nərimanovun siyasi irsini araşdıraraq yazırdı ki, sonrakı illərdə ermənilərin dünya dövlətlərini, xüsusən xristian dünyasını özlərinin yalan üzərində qurulmuş planlarına inandıra bilməsi, nəticədə, Azərbaycan torpaqlarının bir hissəsini ələ keçirərək orada yaşayan minlərlə azərbaycanlını qətlə yetirməsi, sağ qalanları yurd-yuvasından didərgin salması, soydaşlarımızın əmlakını qarət etməsi, ata-baba torpaqlarımızdakı tarixi abidələri məhv etməsi vaxtilə N.Nərimanovun uzaqgörənliklə yazdığı bu fikirlərin isbatıdır.

### N.Nərimanovun nümayiş etdirdiyi mövqe böyük cəsarət idi

Əlbəttə, mart soyqırımının dəhşətli miqyası ilə müqayisədə Nəriman Nərimanovun bu cinayəti törədənlərə qarşı fəaliyyəti az görünə bilər. Amma tarixi proseslərə hər zaman bu günün baxış bucağından deyil, öz dövrünün reallıqlarından baxmaq lazım gəlir. Elə gərgin zamanlarda Nəriman Nərimanovun nümayiş etdirdiyi mövqe böyük cəsarət və fədakarlıq tələb edirdi. O, bu qırğınları dayandırmaq imkanına malik deyildi. Bütün güc S.Şaumyanın başçılıq etdiyi Bakı Sovetinin əlində olduğundan N.Nərimanov bolşevik hakimiyyətində bu səlahiyyətlərdən uzaqda saxlanılırdı. Onun əsas gücü ancaq əlindəki qələmi idi ki, onunla ardıcıl mübarizəsini aparırdı. Bu mübarizədə doktor Nərimanov vətənpərvər ziyalı olmaqla yanaşı, həm də əqidə adamı kimi çıxış edirdi. Bolşevik cildinə girmiş, sinfi mübarizəni öz cinayətləri üçün əldə şüar etmiş cəlladlardan fərqli olaraq Nəriman Nərimanov üçün bu mübarizə xalqların yaxşı yaşaması, ali dəyərlər uğrunda bir araya gəlməsi üçün idi, daha on minlərlə insanın milli mənsubiyyətinə görə qətlə yetirilməsi deyildi.

Nəriman Nərimanov görkəmli dövlət xadimi kimi siyasi fəaliyyətində daim milli ideallara yüksək sədaqət nümayiş etdirmiş, haqqın, ədalətin tərəfdarı olmuşdur. Azərbaycanda sovet hakimiyyətinin qurulmasından sonra bolşevik-daşnak rejiminin xalqın nüfuzlu ziyalılarına, o cümlədən burjuaziyanın nümayəndələrinə qarşı törədilən repressiv tədbirlərə, ədalətsizliklərə qarşı çıxmış, xalqın mənafeyinin nəzərə alınmasını mərkəzdən israrla tələb etmişdir.

Elə bu kimi işlərə görə Moskvada keçirilən iclasların birində Mikoyan Nəriman Nərimanovu millətçi adlandırır. Cavabında Nərimanov deyir: "18-20-ci illərdə günahsız müsəlman uşaqlarını, qoca və qadınlarını qıran və hələ də daşnak şinelini əynindən çıxartmamış adamdan belə söz eşitməyim təəccüblü deyil". O keşməkeşli dövrdə Nəriman Nərimanov öz vicdanına ağır yük götürməmiş, bir azərbaycanlının belə ölümünə fərman verməmişdir. Əksinə bir çoxlarını zamanın sərt küləklərindən qorumuş, nahaq ölümlərdən xilas etmişdir.

Tədqiqatçıların araşdırmalarına görə, Nərimanov Məmməd Əmin Rəsulzadənin, Üzeyir bəy Hacıbəylinin həyatlarını xilas etmiş, neçə generalımızı ölümün pəncəsindən qurtarmışdır. O, Firudin bəy Köçərlini də xilas etmək məramında olub. Amma Gəncəyə vaxtında çata bilməyib və bunun üçün həmişə təəssüf edib.

"Millətçi" Nərimanov varlı təbəqəyə, yəni milli burjuaziyaya münasibətdə Şərq adətləri ilə hesablaşmağı mütləq saydığını bildirib, bolşevik-daşnak ideoloqlarının qisas və qan üzərində köklənmiş çıxışlarının düzgün olmadığını söyləyib. Azərbaycanın sovetləşməsindən sonra Kommunist Partiyasının 1920-ci il oktyabrın 16-da keçirilmiş partiya qurultayında müəyyən qaragüruhçu çıxışlara etiraz edən Nəriman Nərimanov demişdir: "Biz bu sahibkarların mədən və zavod, fabrik, banklarını əlindən aldıq. İstehsal müəssisələrini, məişət binalarını da götürdük. Amma bəzi yoldaşlar elə təkliflər edirlər ki... Tağıyevin, Nağıyevin kostyumunu, hətta onların qadınlarının bəzək və geyimlərini soyundurub almalıyıq. Çox təəssüf edirəm. Siz bunu burjuaziyadan intiqam almaq kimi qəbul etsəniz də, bura Şərqdir. Burada namus məsələsi var. Əgər belə etsək, nəinki burjuaziya nümayəndələri, elə o fəhlələrin də izzət-nəfsinə toxunmuş oluruq".

Nəriman Nərimanov Azərbaycan SSR XKS-nin sədri seçildikdən sonra da Azərbaycan xalqının milli maraqlarını qorumaq üçün səylə çalışmışdır. Sovet hakimiyyətinin ilk illərində respublikamızın xarici siyasətdə müstəqilliyi, habelə nefti üzərində suveren hüquqlara malik olması üçün əzmlə mübarizə aparmış, lakin mərkəz buna imkan verməmişdir. V.İ.Leninə, İ.V.Stalinə yazdığı şikayət dolu məktublarda bütün bunları görmək mümkündür. Nəriman Nərimanov eyni zamanda Azərbaycanın bir çox ziyalı, elm xadimlərinin represiyaya uğramasının qarşısını almışdır. Bütün bunlara etiraz edən daşnak-bolşevik ideoloqları isə Moskvaya ünvanladıqları məktublarda bu şəxsiyyəti millətçi kimi təqdim edir, onun ciddi problemə çevrildiyini söyləyirdilər. Bu da təsadüfi deyildir ki, görkəmli ictimai-siyasi xadim Nəriman Nərimanovun 100 illik yubileyini qeyd etmək, onun heykəlini ucaltmaq üçün Ulu Öndər Heydər Əliyev sovet imperiyasının rəhbərliyi ilə mübarizəyə iki ilə yaxın vaxt sərf etmişdir. Sonda istəyinə nail olmuşdur.

44 günlük Vətən müharibəsində "Dəmir yumruq"la erməni faşizminin bütün xam xəyalları yox edildi, Azərbaycan dövlətinin necə dəhşətli bir düşmənə qalib gəldiyini gördük. Ermənilər arasından növbəti Şaumyanların, Nijde Qaragenlərin, Köçəryanların, Sarkisyanların və daşnak əqidəsinə sadiq yeni cəlladların yetişməsinə imkan verməmək bu regionda sülh, əməkdaşlıq, davamlı inkişaf, fərqli mədəniyyətlərə hörmət ruhu arzulayan hər kəsin birgə missiyasıdır.

***İradə ƏLİYEVA,***
***"Azərbaycan"***

# Düşmənin başını əzən «dəmir yumruq»

## Ermənistan öhdəliklərini yerinə yetirmədikcə, hərbi təxribatlara yol verdikcə onun zərbəsini hiss edəcək

"Əgər biz görsək ki, erməni faşizmi baş qaldırır, əgər biz görsək ki, xalqımıza, dövlətimizə yeni təhlükə mənbəyi yaranır, heç tərəddüd etmədən erməni faşizminin başını bir daha əzəcəyik. Bunu hər kəs bilsin! Müharibənin və qələbənin rəmzi olan "dəmir yumruq" yerindədir, bunu heç kim unutmasın!"

Prezident İlham Əliyev bu sözləri ötən il sentyabrın 27-də Anım günü münasibətilə xalqımıza müraciətində demişdi. Ondan əvvəl də dövlət başçısı Ermənistana və ona havadarlıq etmək istəyənlərə xəbərdarlıq etmiş, "dəmir yumruğ"un yerində olduğunu bildirmişdi. 2020-ci ilin 10 noyabrından sonra düşmən İlham Əliyevin bu sözlərinin gerçək təsdiqini bir neçə dəfə görüb. Nəinki görüb, başından aldığı zərbə ilə hiss edib. 44 günlük müharibədən sonra da ordumuz üzərinə düşən öhdəlikləri yerinə yetirməmək üçün müxtəlif təxribatçı hərəkətlərə yol verən Ermənistanı layiqincə cəzalandırıb.

Hələ ötən ilin noyabrında Kəlbəcər və Laçın rayonları istiqamətində baş verənləri yəqin ki, Ermənistanın siyasi və hərbi rəhbərliyi heç vaxt unuda bilməyəcək. Həmin vaxt Ermənistanın hərbi birləşmələri yüksəklikləri ələ keçirmək və hərbi üstünlüyə nail olmaqla daha əlverişli mövqelərə yiyələnmək məqsədilə qəfil hərbi əməliyyata başlamışdı. Həmin günlərdə Azərbaycan Ordusunun qətiyyəti nəticəsində Ermənistanın dövlət sərhədində törətdiyi təxribat və hərbi avantüra tam iflasa uğradılmışdı. "Dəmir yumruğ"u hiss edən düşmənin bölmələri döyüş meydanından qaçmış, onların hərbi texnikaları məhv edilmişdi. Görülmüş qəti tədbirlər nəticəsində erməni hərbçiləri tərksilah edilərək saxlanılmış, xeyli sayda müxtəlif çaplı silah və külli miqdarda sursat qənimət kimi ələ keçirilmişdi.

Martın 26-sı səhər saatlarında dumanlı hava şəraitindən istifadə edən qeyri-qanuni erməni silahlı dəstələrinin üzvləri Azərbaycan Ordusunun bölmələrinə qarşı təxribat törətməyə cəhd göstərib. Dərhal görülən tədbirlər nəticəsində qeyri-qanuni erməni silahlı dəstələrinin üzvləri geri çəkilməyə məcbur edilib.

Qeyd edək ki, ordumuz öz qarşısında duran vəzifələri layiqincə yerinə yetirir, mövqelərin və dislokasiya yerlərinin dəqiqləşdirilməsi işlərini uğurla həyata keçirir. Azərbaycan Ordusunun ölkəmizin suveren ərazilərinin tərkib hissəsi olan Fərrux kəndi və ətraf yüksəkliklərdəki mövqelərində heç bir dəyişiklik baş verməyib.

10 noyabr üçtərəfli Bəyanatına əsasən darmadağın edilmiş işğalçı ordunun qalıqları əraziləri tərk etməli idilər. Lakin bu, baş verməyib və Rusiya sülhməramlılarının müvəqqəti yerləşdiyi Azərbaycan ərazilərində qalan qanunsuz erməni silahlı dəstələri təxribatçı fəaliyyətlərini davam etdirirlər. Ermənistan bəyanatın 6-cı maddəsini pozaraq Laçın dəhlizi vasitəsilə hərbçilərin bölgəyə göndərilməsini davam etdirir.

Bölgədə sülh və sabitliyin təmin olunması yalnız üçtərəfli Bəyanatın bütün müddəalarının qeyd-şərtsiz icrasından asılıdır. Ermənistanın birgə bəyanatın əksinə olan digər bütün addımları yalnız sülh quruculuğu prosesinə maneədir. Lakin Ermənistan bunları hələ də dərk etmək reallığından uzaqdır və hələ də saxta ittihamlarla beynəlxalq ictimaiyyətə yalan müraciətlər edir. Azərbaycanın "dəmir yumruğ"u isə həmişə düşməni başından vurmaq üçün hazır vəziyyətdədir. Nə qədər ki, Ermənistan üçtərəfli Bəyanatın müddəalarına əməl etməyəcək, nə qədər ki, qanunsuz silahlı birləşmələr Rusiya sülhməramlılarının müvəqqəti yerləşdiyi ərazilərimizi tərk etməyəcək və nə qədər ki, hərbi təxribatlara yol verəcəklər, "dəmir yumruq" öz sözünü deyəcək.

***Rəşad CƏFƏRLİ,***
***"Azərbaycan"***





**Dünya olduğu kimi**

# Ətyeyən, suda yaşayan bitkilər

**Canlılar aləminin ayrılmaz tərkib hissəsi olan bitkilər atmosferdən oksigen qazını alaraq biokütlə ixrac edir.**



Qədim zamanlarda, qidaların çoxçeşidli olmadığı zamanlarda belə insanlar qida mənbəyi kimi heyvanlardan və bitkilərdən istifadə ediblər. Təbii ki, bitkilərin hamısı qidalanma üçün yararlı olmayıb, onların zəhərli növləri də mövcuddur. Bitkilər coğrafi mühitə görə fərqlənə bilir, yəni hər bitkinin yaşadığı, çoxaldığı ərazilər olur. Uyğunlaşmadığı torpaqlarda isə bitki növləri yetişmir. Hazırda da bəzi bitkilərdən qida mənbəyi, dərman kimi, bəzilərindən isə müxtəlif materialların alınması üçün istifadə olunur. Bununla yanaşı, gözəlliyi ilə insanı heyran edən, evləri, ofisləri bəzəmək üçün dekorativ bitkilər də var.

Azərbaycan ərazisi zəngin floraya malikdir. Respublikamızda 4500-dən çox bitki növü yayılıb. Növlərin ümumi sayına görə Azərbaycanın florası Cənubi Qafqazın başqa respublikalarına nisbətən xeyli zəngindir. Respublikamızda rast gələnən bitki növləri Qafqazda olan bitki növlərinin 66 faizini təşkil edir. Ölkədə bitən 240 növ bitki endemik (yalnız bir ərazi üçün səciyyəvi olan bitki) növ sayılır.

## Zanbağın vətəni



**Zanbaq qədim zamanlardan Aralıq dənizi ətafında yetişib, sonra dünyaya yayılıb. 4 minə qədər növü olan bu gül Azərbaycanda əsasən ev şəraitində bəzək bitkisi kimi becərilir. Zanbağın digər adı tülpandır. Tülpan fars sözü olub, "türban" mənasına gələn "toliban"dan götürülüb. Zanbaqlar inamın simvolu hesab olunur.**

Məlumatlara görə, zanbağın vətəni İrandır. Bu çiçək İrandan Türkiyəyə gətirilərək adına lalə deyilib. Türk sultanının malikanəsində hər baharda ən azı 500 min zanbaq çiçək açar, hər il buna həsr olunan bayram mərasimləri keçirilərmiş.

XVI əsrin ortalarında Avstriya imperatorunun elçisi ilk dəfə zanbağı məhz Türkiyədəki bağçaların birində görür. Tanımadığı çiçək onu heyran edir və nəticədə 1554-cü ildə çoxlu miqdarda toxum və soğancıq alınıb Vyanaya gətirilir. Qısa müddətdə çiçək nəinki Avstriyada, həmçinin Fransa, İngiltərə, Almaniyada, sonradan isə Amerikada məşhurlaşır.

Hər bahar İstanbulun Əmirgan parkında lalə (zanbaq) festivalı keçirilir. Festival vaxtı 300 min kvadratmetrdən artıq olan parkın ərazisində zanbaqların müxtəlif növlərinin sərgiləndiyi gözəl və orijinal çiçək ləkləri quraşdırılır.

2014-cü ildə Ottavada dünyada ən böyük zanbaq festivalı keçirilib. Bu festival 1953-cü ildən Ottavada qeyd olunur. Festivalın keçirilmə səbəbi tarixi hadisəyə əsaslanır. Niderlandın kral ailəsi İkinci Dünya müharibəsi illərində almanlardan qaçıb Kanadada sığınacaq tapır. Şahzadə Marqrit 1943-cü il yanvarın 19-da Ottava xəstəxanalarından birində anadan olur. Onun Niderland taxt-tacına hüququnu qoruyub saxlamaq üçün Kanada hökuməti Marqritin anadan olduğu palatanı xüsusi fərmanla Niderland ərazisi elan edir.

1945-ci ildə Amsterdama gələn, daha sonra kraliça elan edilən şahzadə Yuliana minnətdarlıq əlaməti olaraq Kanadaya 100 min zanbaq soğanağı göndərmək sərəncamı verir. Beləcə bu ənənə yaranır və hər il hollandlar Kanadaya on minlərlə zanbaq soğanağı hədiyyə edirlər. Buna görə may ayında Ottavada zanbaq festivalı keçirilir.

## 11 kiloqramlıq çiçək



Dünyanın ən qəribə güllərindən hesab olunan Velviçia Mirabilis 400-1500 il yaşaya bilir. Hündürlüyü 2 metrə qədər olan bitki yağış suyu olmadan 5 il sağ qalır.

Dünyanın ən böyük çiçəyinə malik olan Rafflesia Arnoldinin vətəni İndoneziya hesab olunur. Bitkinin çiçəyinin eni 1 metrə, ağırlığı isə 7-11 kiloqrama çatır. Əsasən tropik meşələrdə yetişən bitkinin çiçəklərinin ömrü 3 həftəyə qədərdir. İylənmiş ət qoxusu ilə ətrafdakı böcəkləri cəlb edən Rafflesia Arnoldi həşəratlar vasitəsilə toxumlarını ətrafa yayır.

## Ən yaşlı ağaclar

Hər bitkinin öz vətəni və daha geniş yayıldığı yerlər var. Onların toxumları münbit şəraitə düşdükdə meyvə verir, çiçəkləyir, yaşıllığını qoruyub saxlayır. Təbii ki, burada bitkiyə qulluq da əsas yer tutur. Hər bitkinin qidalanması, saxlanma şəraiti müxtəlif olur. Bəzi bitkilər quru iqlimi, istini sevdiyi halda, digərləri daha çox su tələb edir. Bundan başqa, dünyada yaşı min illərə malik olan və ömrü bir günə bərabər olan bitkilərə də rast gəlmək mümkündür.



Dünyada ən yaşlı ağac İsveçdə Fulufjallet dağında bitən "Old Tjikko" hesab olunur. Onun 9550 yaşı var.

Digər qədim ağaclardan biri Jomon Sugi Yaponiyada Yakuşima adasının ən hündür dağının şimal ətəyində bitir. Yapon sidrinin uzunluğu 24 metr, diametri isə 6 metrdir. Məlumata görə, ağac halqalarının üzərində aparılan müşahidələr onun 7000 il yaşı olduğunu söyləməyə əsas verir.

Uzunömürlü və ən yaşlı ağaclardan biri də Kaliforniyada bitən, 4800 il yaşı olan Qılçıqlı şam ağacıdır. Bu ağacın əsas xüsusiyyəti qətranının çox qatı olmasıdır ki, bununla da özünü ziyanverici həşəratlardan və göbələklərdən qoruyaraq uzun ömür sürür. Yaşı çox olan ağaclardan biri də İranın Əbərkuh şəhərində bitən Əbərkuh sidridir. Ağacın təqribən 4000 il yaşı var, uzunluğu 82 metr, eni isə 59 metrdir.

Yaşlı ağaclardan hesab olunan daha bir ağac qaraçöhrə növünə aiddir. 3600 il yaşı olan ağac Şimali Uelsdə bitib. Bundan başqa, And dağlarının ətəyində yetişən, yaşı 3500 il olan Alerse ağacı, Floridada parkda bataqlıqda bitən, yaşı 3200 il olan bataqlıq sərvi (senator) qədim ağaclardan hesab olunurlar.

## Sədaqəti, sevgini simvolizə edən çiçəklər



**Çiçəklər hər bir xalqın mədəniyyətində bir məna daşıyır. Hətta rənglərinə görə də bəzən onları mənalandırırlar. Bəzi çiçəklər yazın gəlişindən, bayramdan xəbər verdiyi halda, bəzilərindən isə yas mərasimlərində, hüzn günlərində istifadə olunur.**

Təbii ki, bu da hər bir millətin öz adət-ənənəsindən, mentalitetindən asılı olaraq dəyişə bilər. Qırmızı qızılgül sevgi, dostluq, incəliyi əks etdirir. Qərənfil gülü bizdə müəyyən dövrə qədər daha çox sevgi mənasını ifadə edən, sevgiliyə bağışlanan gül olsa da, 20 Yanvar faciəsindən sonra daha çox qəbir üstünə qoyulan çiçəyə çevrildi. Yunanlarda isə qərənfildən "tacqoyma" mərasimində istifadə olunur. Bu gül bir neçə rəngdə olur. Belə ki, əsasən çəhrayı-bənövşəyi rəngdə olsa da, digər rəngləri də mövcuddur. Rənglərin hər birinin müxtəlif mənaları var. Məsələn, qırmızı qərənfil heyranlığı, ağ qərənfil isə şansı simvolizə edir.

Gözəlliyi ilə seçilən kala zəhərli bitki hesab olunur və çiçəkləri öldürücü gücə malikdir. Çiçək və yarpaqları heyvanlar tərəfindən yeyildiyi zaman onların ölümünə səbəb olur.

Dünyada ən gözəl və iyli çiçəklər sırasında orxideya mühüm yer tutur. 250 mindən çox növü olan gülün çəhrayı və ağ rəngləri daha çox yayılıb. Bu rəngli çiçəklər şəfqət və simpatiyanı özündə əks etdirir.

Gözəl qoxusu ilə fərqlənən güllərdən biri də lavandadır. Lavanda çiçəkləri bənövşəyi, mavi və digər rənglərdə olur. Lavanda sükut, sədaqət və şans simvoludur.

Çiçək açması ilə bayramı gətirən albalı ağacının çiçəkləri Amerika və Yaponiyada fərqli qarşılanır. Bu ağacın çiçək açması həmin ölkələrdə festivalların keçirilməsi ilə qeyd olunur. Ən məşhur rəngləri ağ və çəhrayıdır.

## Suda bitir, amma kökü yoxdur

**Bitkilər ancaq quruda, dibçəklərdə deyil, həmçinin suda da yaşayırlar. Su bitkiləri tamamilə suyun içində yaşamasına və gövdəsinin suda olmasına görə iki qrupa bölünürlər.**



Bəzi su bitkiləri balıqların, digər su heyvanlarının qida mənbəyidir. Su bitkilərinə suzanbağı, süsənbər, elodeya, sufındığı, sugülü, yosunlar və digər bitkilər aiddir.

Su hövzələrində kütləvi surətdə çoxalaraq gəminin hərəkətini çətinləşdirən elodeyaya "su taunu" da deyilir. Azərbaycanda cəmi bir növü bitən elodeya çoxillik bitki hesab olunur.

Ən gözəl su bitkisi olan suzanbağının kökündən qida kimi istifadə edilir. Ağ və sarı rəngli suzanbağı "Qırmızı kitab"a salınıb. Ən böyük suzanbağının - Viktoriya Reqiyanın vətəni Cənubi Amerikadır. İldə 2-3 gün suyun altında ətirli çiçəklər baş qaldırır ki, onlar birinci gün ağ, ikinci gün çəhrayı, üçüncü gün isə moruğu rəngdə olur. Suzanbağının yarpaqları suyun səthində üzür.

Sugülü bitkisi çox da təmiz olmayan su hövzələri, gölməçələrdə bitir. Bu bitki suyun səthini örtük kimi bürüyür. Xalq arasında onu "qurbağa libası" adlandırırlar. Bitki faydalı maddələrlə zəngindir və bəzi xəstəliklərin müalicəsində dərman kimi istifadə olunur. Sugülü çiçəkləri dünyanın ən xırda çiçəkləri sayılır, onun kökü yoxdur.



## Dünyanın ən böyük kaktusu

Quraqlığa davamlı bitki hesab oluan kaktusun 3 mindən çox növü var. Ən çox növünə isə Cənubi Amerikada rast gəlinir. Kaktusların əksəriyyəti 500 il yaşayır və 10 metr hündürlüyə malik olurlar. Kaktuslar əsasən üzərlərində olan tikanları ilə fərqlənirlər. Bu bitkinin zəhərli tikanı olan növləri də mövcuddur.

Kaktus quraqlığa davamlı olsa da, gün ərzində 3-4 saat günəş işığına ehtiyac duyur. Yayda kaktuslara həftədə 2-3 dəfə, qızmar istidə tez-tez, yağışlı havalarda isə daha gec su vermək lazım gəlir.

Dünyada ən böyük kaktus hesab olunan "Suquaro" Meksikadadır. Hündürlüyü 13,8, eni isə 3,1 metrdir. "Suquaro" əsasən səhralarda bitir. Bitki 35 ildən sonra çiçək açmağa başlayır, 70 yaşında isə budaqları əmələ gəlir. "Saquaro 150-200 il yaşaya bilir. Hündürlüyü təxminən 15 metrə qədər çatan bitkinin böyüməsi olduqca yavaş gedir. Maksimum ölçüsünə 75 yaşında çatır. Kaktusun tərkibinin 80 faizini su təşkil edir. Suquaro çətin bitki hesab olunur, çünki torpaqdan bütün suyu və qida maddələrini özünə çəkərək ətrafında digər bitkilərin yaşamasına imkan vermir.

Kaktusların insanlar üçün faydaları da var. Bu bitkinin kompüter texnologiyalarından qaynaqlanan zərərli radiasiyanı özünə çəkdiyi deyilir. Buna görə bəzi insanlar kompüterlərin yanına kaktus qoyurlar.

*Əsmər QARDAŞXANOVA,*
*"Azərbaycan"*



**Sağlıq olsun**

# Şəfalı otlar

**Dərman bitkiləri haqqında ilk məlumatlara hələ eramızdan 6 min il əvvəl qədim şumerlərin əlyazmalarında rast gəlinib. Qədim tarixə malik Çin təbabətində də dərman bitkilərindən geniş istifadə olunub.**



Mənbələrə görə eramızdan 3 min il əvvəl Çində 230-dək dərman bitkisindən istifadə olunub. "Təbabətin atası" Hippokratın "Kompus Hyppokraticum" adlı külliyyatındakı dərman bitkiləri haqqında məlumatlar tibb elminin inkişafında mühüm rol oynayıb. Bu gün alimlər dünya xalqları tərəfindən 21 min növ bitkinin müalicə məqsədilə istifadə edildiyini müəyyənləşdiriblər.

Dərman bitkiləri minilliklər boyu yaralanmaların və müxtəlif xəstəliklərin müalicəsində istifadə edilib. Elə bu gün də müasir tibbi müalicə ilə yanaşı, dərman bitkilərindən və bitki mənşəli digər vasitələrdən sağlamlıq üçün istifadə edilir. Bitkilərin insan sağlamlığına təsiri də müasir tibb mütəxəssisləri tərəfindən daim araşdırılır və bu istiqamətdə yeni kəşflər edilir.

Dərman bitkilərinin müalicəvi xassəsi onların tərkibindəki fizioloji təsiredici fəal maddələrin - alkaloidlər, qlikoidlər, flavonoidlər, vitaminlər, aşı maddələri, kumarinlər, efir yağları və bir sıra turşular, mikroelementlər, fermentlərin olması ilə əlaqədardır.

### *Hərəsinin öz faydası var*

Dərman bitkiləri arasında müxtəlif otların da sınanmış müalicəvi təsirləri var. Məsələn, xalq təbabətində geniş istifadə olunan dəvədabanının tərkibində 2,63 faiz acı qlyukozid mövcuddur. Bu bitkinin yarpaqları bişirmə və dəmləmə şəklində bəlğəmgətirici və öskürəyi sakitləşdirici dərman kimi işlədilir.

Çobanyastığı çox güclü antiseptik, mikrob və virus əleyhinə xüsusiyyətlərə malikdir. Angina, faringit zamanı çobanyastığı dəmləməsinin istifadəsi çox yaxşı effekt verir. Zökəm, haymorit, sinusitlər zamanı çobanyastığı dəmləməsi ilə burun boşluğunu yumaq və buruna çobanyastığı yağı (hər burun yoluna 1-2 damcı) damcılamaq çox effektlidir. Qastrit, kolit, mədə və onikibarmaq bağırsağın xorası xəstəliklərinin müalicəsi zamanı çobanyastığı dəmləmələri çox faydalıdır. Çobanyastığı insanın sinir sisteminə çox yaxşı sakitləşdirici təsir edir. Məhz bu səbəbdən çobanyastığı uşaqlar və böyüklər üçün nəzərdə tutulmuş bir çox sakitləşdirici preparatın tərkibinə daxildir.

Qantəpər bitkisinin çiçəklərindən dəmləmə (çay) şəklində qədimdən bəri soyuqdəymədə, daxili qanaxmalarda, eləcə də ürək-damar və böyrək-sidik yolu xəstəliklərinin müalicəsində istifadə olunur.

Bağayarpağının yarpaqları yarasağaldıcı məlhəmdir. Onun toxumlarında zülal, selik, aşı maddələri, piyli yağlar var ki, ondan bişmiş halda qarın boşluğu xəstəliklərində dərman kimi istifadə edilir.

Qatırquyruğunu dəmləyib içmək böyrəklərdə və sidik yollarında olan daşlaşmanı, kirəcləşməni, oynaqlardakı duzlaşmanı və ağrıları azaldır, sidik ifrazını asanlaşdırır.

Ödqovucu və sidikqovucu təsirə malik solmazçiçəyi qaraciyər xəstəlikləri, az turşuluqlu qastrit və ateroskleroz zamanı faydalıdır.

Amma müalicəvi bitkilərdən kortəbii istifadə sağlamlığa ciddi zərər vura bilər. Hansısa orqana faydalı bildiyiniz bir bitkidən kortəbii istifadə orqanizminizdə digər fəsada yol aça bilər. Buna görə də ilk əvvəl araşdırmaq məsləhətdir.

## Əvəlik ürəyin dostudur

**Azərbaycan mətbəxində öz yeri olan əvəlik bitkisindən xalq təbabətində öskürək, plevrit, bronxit, bronxial astma, qaraciyər və öd kisəsi, dəri xəstəlikləri, anemiya, qıcıqlanmış bağırsaq sindromu, ürəkbulanma, mədədə qıcqırma zamanı, eləcə də qurdqovucu vasitə kimi istifadə olunur. Yarpaqlarının yumşaldıcı və iltihab əleyhinə təsirlərinə görə bir çox dəri xəstəliklərində, döyənəklərdə islatma və vanna şəklində qəbul edilir.**



Tərkibi C, A, E, PP və B qrupu vitaminləri ilə zəngin olan əvəlik içərisindəki askorbin turşusu sayəsində qan damarlarının keçiriciliyini yaxşılaşdırır, beynin işini aktivləşdirir. Gözlərdə itiliyi artıran bu bitki dəmirlə də zəngin olduğu üçün qanın keyfiyyətini yaxşılaşdırır, qan dövranını artırır.

Ürək üçün vacib olan bitki orqanizmdə maye balansını təmin edir. İnfarkt və işemik xəstəlik riskini azaldır. Sinusit, haymorit, angina, burun-qulaq-boğaz orqanlarının infeksiyaları, iltihabında istifadə olunur. Əvəliyin təzə yarpaqlarından və zoğlarının şirəsindən qarqara kimi istifadə edilməsi diş ətinin iltihabını azaldır, qankəsici təsir göstərir.

## Təzyiqin çarəsi olan kəklikotu

**Şəfalı bitkilər dedikdə ilk ağla gələn bitkilərdən olan kəklikotudan hələ qədim zamanlardan sağlamlıq üçün istifadə edildiyi məlumdur. Bu bitkinin əhəmiyyəti haqqında İbn Sina, Dioskorid və Böyük Pliniy əsərlərində yazıblar.**



Yeməklərə, çaya ətir və ləzzət vermək, məqsədi ilə geniş istifadə olunan bu faydalı bitkinin tərkibində efir yağı ilə bərabər, kamedlər, flavanoidlər, ursol və olenaol turşuları var. Təbabətdə geniş tətbiq olunan kəklikotudan bir çox xəstəlikdən qurtulmaq üçün istifadə olunur. Qarqara şəklində ağız boşluğunun və udlağın iltihabi xəstəliklərində tətbiq edilir. Bəlğəmgətirici və antiseptik vasitə kimi laringitdə, traxeitdə, bronxitdə, göyöskürəkdə və bronxopnevmoniyada, eləcə də mədə turşuluğunun azalması, köp, bağırsaqların atoniyası və spazmı ilə gedən mədə-bağırsaq xəstəliklərində qəbul edilir. Kəklikotu çiçəyinin 9 qramının sirkə və duzla qarışığını ödqovucu vasitə kimi də qəbul edirlər.

Kəklikotu həlimi qarında yaranan spazmanı götürür, həzmə kömək edir. Qusma və kolitə qarşı da xeyirlidir. Bu bitki və baldan hazırlanmış məlhəm zəhərli cücülərin dişlədiyi yerin üzərinə qoyulduqda faydasını görmək olur.

Kəklikotunun əncirlə həlimindən astma və öskürək zamanı da istifadə edirlər. Sakitləşdirici təsirə malik olan kəklikotu immuniteti artırır, soyuqdəyməyə və ağciyər xəstəliklərinə qarşı, revmatizm, spazma, zökəm və qrip xəstəliklərinin müalicəsinə kömək edir.

Ətirli bitki diş ağrısını və öskürəyi kəsir. Damaqları möhkəmləndirir. Xolesterolun miqdarını nizamlayır. Aritmiya ehtimalını azaldır, qan dövranını nizamlayır, eyni zamanda qanazlığını aradan qaldırır. Kəklikotu, həm də yüksək təzyiqin dərmanıdır və şəkər xəstəliyinə qarşı əvəzolunmazdır.

## Öskürəyin qənimi olan gülxətmi

**Gülxətmi bitkisinin faydalı xüsusiyyətləri antik çağlardan bəri bir çox xalq tərəfindən bilinir. Bu bitkidən boğaz xəstəliklərinin müalicəsində geniş istifadə edilir, ağciyərlərə yığılan bəlğəmi təmizləyir. Gülxətmi immunitet sistemini gücləndirir, gözlərin sağlamlığına müsbət təsir edir.**



Farmakologiyada geniş istifadə edilən bu bitkidən tənəffüs və həzm sistemi orqanlarının müalicəsi üçün də istifadə edilir. Onun kökünün dəmləməsi iltihab əleyhinə, öskürəkkəsici kimi təsirə malikdir. Bu dəmləməni içmək badamcıqlardakı şişkinliyi, ağrını aradan qaldırır, öskürəyi yumşaldır və bəlğəmin azalmasına səbəb olur. Tərkibində olan yumşaldıcı selik maddələri qastrit, kolit, mədə və onikibarmaq bağırsağın yarası xəstəlikləri zamanı çox faydalıdır. Xalq təbabətində gülxətmi kökünün dəmləməsindən kompreslərin qoyulması, yanıqlar zamanı yaranın yuyulması, boğazı qarqara etmək üçün geniş istifadə edilir.

Qrip və pnevmoniya xəstəliklərini quru gülxətmi çiçəklərindən hazırlanan dəmləmə ilə müalicə etmək mümkündür. Bunun üçün 200 ml qaynar suda dəmlənmiş 1 xörək qaşığı gülxətmi çiçəyini gündə 3 dəfə 50 ml olmaqla içmək lazımdır.

## Baldırğan min bir dərdə dəvadır

**Şəfalı bitkilərdən olan baldırğanın tərkibində etil efiri yağı və yağ turşuları var. Əsas komponentini isə sirkə turşusunun oktil efiri təşkil edir və bu keyfiyyətinə görə tibdə tətbiq olunur. Ondan hazırlanan preparatlardan ödqovucu, soyuqdəymə, ağrıkəsici və sakitləşdirici vasitə kimi istifadə olunur.**



Müalicə məqsədləri üçün bitkinin yarpaq, kök və toxumlarından da istifadə etmək mümkündür. Aparılan tədqiqatlar nəticəsində baldırğan kökünün dəmləməsinin öd kisəsi daşlarını parçaladığı müəyyən edilib. Köklərindən alınan qalen preparatlar və alkaloidlər göbələk əleyhinə yaxşı təsirə malikdir. Meyvələrindən alınan kumarinlər şiş əleyhinə təsir göstərir. Həmçinin bəlğəmli öskürək, isteriya və epilepsiya tutmalarında, sinir, dəri və mədə-bağırsaq xəstəliklərində, əsasən də diareyalarda müalicə üçün istifadə çox faydalıdır. Kök hissəsi qaraciyər və sarılıq xəstəliklərinin əleyhinə olduqca faydalıdır. Təzə toplanmış bitkidən hazırlanan çaydan qastrit, həzm sisteminin pozulması, qan təzyiqi, ürək-damar xəstəlikləri zamanı istifadə edilir.

Bununla yanaşı, bitkinin fototoksik təsiri də var. Baldırğanın yarpaqları efir yağları ilə zəngindir. Bitkinin bəzi növlərinin şirəsinin tərkibində dərinin ultrabənövşəyi şüalara qarşı müdafiə qabiliyyətini azaldan, həssaslığını isə kəskin artıran aktiv furanokumarin maddəsi var. Baldırğan şirəsinə toxunduqda və ya bitkini qırmaq istədikdə dəridə qıcıqlanma, bəzən isə yanıq - fotodermatit yarana bilər.

## Xərçənglə savaşan pərpətöyün

**Avropaya XIX əsrdə gətirilən pərpətöyünün vətəni Hindistan, Argentina və Braziliya hesab edilir. Respublikamızın bir çox bölgəsində də yayılan bu bitki A, B1, B2, B6, C, E, beta karotin, riboflaven kimi vitaminlərlə və minerallarla zəngindir. Pərpətöyün bu tərkibi sayəsində bir çox xəstəliyə qarşı qoruyucu təsir göstərir, eyni zamanda həzm sistemini gücləndirir.**



Omega-3 ilə də zəngin olan pərpətöyün ürək-damar sisteminin sağlamlığını qoruyur. Tərkibindəki komponentlər sayəsində həm xolesterolu aşağı salır, həm də qan təzyiqinin normallaşmasında əhəmiyyətli rol oynayır.

Göz problemlərinə qarşı da qoruyucu təsir göstərən pərpətöyün antioksidant təsirinə görə xərçəng və bir çox xəstəliyin müalicəsində istifadə olunur. Sidikqovucu və toksin təmizləyici xüsusiyyəti olan pərpətöyünün böyrəklərdəki qum və daşı tökdüyü təsdiq olunub. Tərkibindəki vitamin və minerallar sayəsində yorğunluq, halsızlıq və depressiyaya qarşı əhəmiyyətli rol oynayır.

Dəridə quruluq kimi problemləri aradan qaldırır. Bakteriya və göbələk yaranmasına qarşı qoruyucu təsirə malik olduğundan bədəni xəstəlik yaradan mikroorqanizmlərdən qoruyur.

*Yasəmən MUSAYEVA,*
*"Azərbaycan"*

# Şəhid pilotların xatirəsi yad edilib





Aprelin 2-də Aprel döyüşləri zamanı qoşunların təmas xəttində Ermənistan silahlı bölmələrinin hücumunu dəf edərkən qəhrəmancasına şəhid olan pilotlar - mayor Urfan Vəlizadə, mayor Təbriz Musazadə və baş leytenant Əbu Bəkir İsmayılovun anım günü münasibətilə tədbir keçirilib.

Müdafiə Nazirliyinin Mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, İkinci Şəhidlər xiyabanında keçirilən tədbirdə nazirliyin əməkdaşları, ictimaiyyət nümayəndələri, şəhidlərin ailə üzvləri və döyüş yoldaşları onların məzarlarını ziyarət edərək önünə əklil və gül dəstələri düzüb, xatirələrini anıblar. Əvvəlcə xalqımızın Ümummilli Lideri Heydər Əliyevin və Azərbaycanın ərazi bütövlüyü uğrunda şəhid olan Vətən övladlarının xatirəsi birdəqiqəlik sükutla yad olunub.

Mərasimdə çıxış edənlər şəhidlərimizin şərəfli həyat və xidmət yolundan, onların vətənpərvərliyindən, 2016-cı ilin Aprel döyüşlərində, eləcə də Vətən müharibəsində erməni işğalçılarının cəbhədə törətdikləri təxribatlara Azərbaycan Ordusunun verdiyi layiqli cavabdan, hərbçilərimizin döyüş meydanında göstərdiyi şücaətdən və qəhrəmanlıqlarından, tarixi torpaqlarımızın düşmən işğalından azad olunmasından danışıblar.

Şəhidlərin ailə üzvləri və yaxınları göstərilən diqqət və qayğıya görə dövlət başçısına, Müdafiə Nazirliyinin rəhbərliyinə dərin minnətdarlıqlarını bildiriblər.


# OXUCULARIN NƏZƏRİNƏ!

# "AZƏRBAYCAN"

*qəzetinə 2022-ci il üçün abunə yazılışı kampaniyası davam edir!*

**Abunə respublikanın bütün poçt şöbələri tərəfindən aparılır.**
**Eyni zamanda aşağıda göstərilən mətbuatyayımı qurumlarına müraciət edə bilərsiniz:**

| | |
|---|---|
| *"Azərpoçt" MMC* | *(012) 598-49-55, (051) 225-02-13* |
| *"Qaya" firması* | *(012) 566-77-80, (050) 214-40-53* |
| *"Region Press" MMC* | *(055) 316-79-01, (050) 316-79-01* |
| *"Səma-M" MMC* | *(012) 594-09-59* |
| *"Ziya" LTD* | *(012) 497-76-96, (050) 306-77-22* |
| *"Pressinform" MMC* | *(012) 598-49-52, (070) 340-01-00* |
| *"City press" MMC* | *(055) 819-09-26* |

*1 illik*
124,80 (yüz iyirmi dörd manat səksən qəpik) manat

*6 aylıq*
62,40 (altmış iki manat qırx qəpik) manat

*3 aylıq*
31,20 (otuz bir manat iyirmi qəpik) manat

*Hörmətli oxucular!*
*Abunə ilə bağlı hər hansı bir problemlə üzləşsəniz, redaksiyaya (012) 539-59-33 nömrəli telefona zəng vura bilərsiniz.*

**ABUNƏ YAZILMAĞA TƏLƏSİN!**


# "Yaşıl Marafon - 2022" ağacəkmə kampaniyasına start verilib

Heydər Əliyev Fondunun vitse-prezidenti, IDEA İctimai Birliyinin təsisçisi və rəhbəri Leyla Əliyevanın təşəbbüsü ilə "Ümumrespublika Yaşıllaşdırma Marafonu" ("Yaşıl Marafon") çərçivəsində ölkə üzrə növbəti kütləvi ağacəkmə kampaniyasına başlanılıb.





AZƏRTAC xəbər verir ki, aprelin 2-də Müşfiqabad qəsəbəsində "Yaşıl Marafon 2022" kampaniyası çərçivəsində Bakıda ilin ilk ağacəkmə aksiyası keçirilib. Azərbaycan Könüllü Təşkilatları İttifaqının dəstəyi ilə cəlb edilmiş 100-dən artıq könüllünün iştirakı ilə keçirilən aksiya zamanı ərazinin torpaq-iqlim şəraitinə uyğun 2000 ədəd müxtəlif cinsli ağac əkilib.

IDEA İctimai Birliyi və Ekologiya və Təbii Sərvətlər Nazirliyinin birgə təşkilatçılığı ilə həyata keçirilən kampaniya zamanı ölkənin müxtəlif regionlarında yaz-payız əkin mövsümləri müddətində kütləvi ağacəkmə aksiyalarının keçirilməsi, yaşıllıq sahələrinin artırılması nəzərdə tutulub.

Qeyd edək ki, builki "Yaşıl Marafon" çərçivəsində Azərbaycanda, xüsusən də Abşeron yarımadasında yaşıl dəhlizlərin yaradılması, mürəkkəb relyefli, sərt yamaclı ərazilərdə ağacların əkilməsi planlaşdırılır ki, bu xüsusda yamaclarda terraslar hazırlanacaq, ağacların əhatəsi təbii sutoplayıcı formaya salınacaq və yağış sularının ağacların suvarılmasına yönəldilməsi mümkün olacaq. Bununla torpaq eroziyasının qarşısı alınacaq, torpağın hava, su keçiriciliyi və münbitliyi artacaq, nəticədə daha yüksək bitiş faizi əldə ediləcək, eləcə də həmin sahələrdə suvarma suyuna qənaət edilmiş olacaq.

Layihənin əsas məqsədi yaşıllıq sahələrinin azalması fonunda yarana biləcək təhlükələrin qarşısını almaq, ağac əkilməsini təşviq edərək ətraf mühitin mühafizəsinə, o cümlədən ölkəmizin flora biomüxtəlifliyinin artırılmasına, yaşıllıqların qorunması ilə bağlı maarifləndirilməyə töhfə verməkdən ibarətdir.

Kütləvi ağacəkmələr eyni zamanda iqlim dəyişikliyinə səbəb olan istixana qazı tullantılarının azaldılmasına nail olmaqla bağlı qlobal fəaliyyətə dəstək xarakteri daşıyır.

Ölkəmizdə yaşıllıqların mühafizəsi və artırılması səylərini bundan sonra da davam etdirmək niyyətində olan IDEA İctimai Birliyi öz tərəfdaşları ilə birgə ictimaiyyəti planetimizin mühafizəsi ilə bağlı mübarizədə, ətraf mühit naminə görülən tədbirlərdə aktiv iştirak etməyə çağırır.

# Gimnastımız dünya kuboku yarışlarında bürünc medal qazanıb



Azərbaycan gimnastı Nikita Simonov Bakıda keçirilən İdman Gimnastikası üzrə Dünya Kuboku yarışlarında bürünc medal qazanıb.

AZƏRTAC xəbər verir ki, kişi gimnastlar arasında halqalar üzrə final mərhələsində çıxış edən təmsilçimiz hakimlərdən 14,500 xal alıb. Yarışın qalibi 14,800 xalla italiyalı Mareska Salvatore olub. Türkiyəli İbrahim Çolak 14,766 xalla turniri ikinci pillədə başa vurub.

Ölkəmizin gimnastika növləri üzrə bu il təşkil etdiyi dördüncü beynəlxalq yarışda 34 ölkədən 145 idmançı qüvvəsini sınayır. Turnirdə ən yüksək icra xalını toplamış gimnastlara ənənəvi "AGF Trophy" kuboku da təqdim olunacaq.

# YARAT Müasir İncəsənət Məktəbini təqdim edir

Aprelin 1-də YARAT Müasir İncəsənət Məktəbində Sabina Şıxlinskayanın müəllif kursu açılıb.

Bir il ərzində rəssam, kurator, art-menecer, art-tənqidçi və tədqiqatçılar üçün nəzərdə tutulmuş kursda fotoqrafiya, video, instalyasiya, performans, konseptual rəngkarlıq, heykəltəraşlıq, kollaj və animasiya istiqamətləri üzrə təlimlər keçiriləcək. Açılış mərasimində AZƏRTAC-a müsahibə verən Əməkdar incəsənət xadimi Sabina Şıxlinskaya kurs barədə deyib: "Bu gün biz Azərbaycanda ilk dəfə Müasir İncəsənət Məktəbi kursunu açırıq. YARAT-ın 10 il ərzində müasir incəsənət sahəsində fəaliyyəti bizə imkan verir ki, belə bir kursa başlayaq. Kursa yazılma müsabiqə əsasında keçirilib. Bizə müraciət edən 120 tələbədən 29-nu seçdik. Onların hamısı rəssam olmayacaq. Onlardan bəziləri kursu bitirəndən sonra art-kurator, art-menecer, art-tənqidçi və müasir incəsənətin müxtəlif istiqamətləri üzrə rəssam peşəsinə yiyələnəcəklər. Tələbələr 1 il ərzində tədris etdiyimiz sahələr üzrə əsas biliklər qazanacaq. Azərbaycanda bu cür biliklərə bizdən başqa heç bir tədris müəssisəsində yiyələnmək mümkün deyil. Bizim kursu bitirən tələbələrə sertifikat veriləcək ki, bu da onlara gələcək peşə fəaliyyətində köməklik göstərəcək".

Layihənin sonunda kursu bitirən tələbələr bir il ərzində topladıqları təcrübəni insanlarla bölüşmək üçün öz işlərini sərgi şəklində nümayiş etdirəcəklər. Əl işləri İçərişəhərin bir neçə məkanında sərgilənəcək.

Açılış mərasimində YARAT Müasir İncəsənət Məkanının baş kuratoru Fərəh Ələkbərli bildirib ki, ötən il YARAT Müasir İncəsənət Məkanı öz 10 illiyini qeyd edib. Bu vaxt ərzində YARAT hər zaman Azərbaycan müasir incəsənətinin ölkədə və xaricdə inkişafına və təbliğinə töhfə verib. YARAT-ın təhsil layihələrinin bu sahədə inkişafında böyük rolu olub. Buna görə də bugünkü gənc rəssamlar YARAT-ın məhsuludur: "Onlar bu yolu bizimlə bir yerdə keçib. 10 il ərzində tanınmış rəssamlarla ustad dərslərimiz, görüşlərimiz olub. Bu gün bizi buraya toplayan Müasir İncəsənət Məktəbi layihəsidir. Bu, bizim üçün önəmli addımdır, çünki layihə təlimə qatılan gənclərə eksperimental ideyalarını gerçəkləşdirməyə köməklik edir".

Sonda "Ön söz - on söz" sənədli filmi nümayiş olunub. YARAT Müasir İncəsənət Məkanın təsisçisi Aida Mahmudovanın yaradıcılığından bəhs edən filmdə onun ilham aldığı məqamlara toxunulub.

# Yəməndə sülh konfransı keçirilir

## Münaqişə tərəfləri hərbi əməliyyatları dayandırırlar



Yəməndə üsyançı hövsilər hərəkatının komandanlığı Səudiyyə Ərəbistanına sülh müqaviləsi bağlamaq tələbini irəli sürüb. Bu barədə hövsilərin hərbi komandanlığının rəsmi nümayəndəsi Yəhya Sarinin bəyanatına istinadən "Əl-Masirah" agentliyi məlumat verib.

Sarinin dediyinə görə, üsyançılar ər-Riyaddan və onun müttəfiqlərindən Yəmənə qarşı iqtisadi blokadanın dərhal dayandırılmasını, hərbi təcavüzə son qoyulmasını və xarici qoşunların Yəmən ərazisindən çıxarılmasını tələb edirlər.

Bununla yanaşı, o, qeyd edib ki, qiyamçılar Səudiyyə Ərəbistanının Ramazan ayı ərzində elan etdiyi atəşkəs rejimini dəstəkləyiblər, lakin gələcəkdə hərbi əməliyyatların aparılmasından imtina etməyiblər: "Mühasirə aradan qaldırılmadan heç bir sülh olmayacaq", - deyəYəhya Sari bildirib.

Ər-Riyadda Yəməndə vəziyyətin tənzimlənməsi üzrə sülh konfransı işə başlayıb. Bu barədə "Əl-Ərəbiyyə" telekanalı məlumat verib.

Jurnalistlərin sözlərinə görə, konfransda BMT Baş katibinin Yəmən üzrə elçisi Hans Qrundberq, ABŞ-ın Yəməndəki elçisi Tim Lenderkinq və beynəlxalq birlik tərəfindən tanınmış Yəmən hökumətinin nümayəndələri iştirak edirlər.

### Ərəb koalisiyası Yəməndə atəşkəs elan edib

Bu arada Səudiyyə Ərəbistanının əsas rol oynadığı Yəməndə sülhün bərpası üzrə beynəlxalq koalisiya atəşkəs rejiminin tətbiq olunduğunu bəyan edib. Bu barədə koalisiyanın rəsmi nümayəndəsi Türki Malikinin bəyanatına istinadən "Al-Hadath" agentliyi xəbər verib.

Malikinin sözlərinə görə, atəşkəs rejimi ölkədə vəziyyətin tənzimlənməsinə və münaqişə tərəfləri arasında danışıqlar üçün əlverişli zəminin yaradılmasına yönəlib: "Biz məsləhətləşmələri uğurlu aparmaq və sülhməramlılıq üçün əlverişli mühit yaratmaq üçün Yəmən daxilində hərbi əməliyyatların dayandırılmasını elan edirik".

"SPA" İnformasiya Agentliyinin məlumatına əsasən, koalisiyanın bəyanatında deyilir: "Birləşmiş koalisiya komandanlığı Ər-Riyadda məsləhətləşmələrin müvəffəqiyyətini təmin etmək və müqəddəs Ramazan ayı ərzində sülhməramlı atmosfer yaratmaq üçün Yəmən ərazisində 30 mart tarixindən etibarən bütün hərbi əməliyyatların dayandırılmasını elan edir. Biz atəşkəs rejiminə sadiq qalacağıq və ona əməl etmək üçün bütün tədbirləri görəcəyik".

Bu qərar ərəb koalisiyası tərəfindən İran körfəzinin Ərəb Dövlətləri Əməkdaşlıq Şurasının baş katibi Naif Falax Mübarək Həcrəfin müraciətinə cavab olaraq ərəb koalisiyası tərəfindən qəbul edilib. Həcrəf Yəmən münaqişəsinin bütün tərəflərini ər-Riyadda martın 30-dan aprelin 7-dək keçirilən məsləhətləşmələr müddətində hərbi əməliyyatların dayandırılmasına çağırıb.

### İran Yəmən Ali Siyasi Şurasının sülh təşəbbüslərini alqışlayır

İran Xarici İşlər Nazirliyinin rəsmi nümayəndəsi Səid Xatibzadə Yəmən Ali Siyasi Şurasının sədri Mehdi Maşatın sülh təşəbbüsünü alqışlayıb. Bu barədə İranın "Mehr" agentliyi xəbər yayıb.

İran təmsilçisi bildirib ki, Sənanın vicdanla təqdim etdiyi plan müharibənin dayandırılmasına, repressiv mühasirənin aradan qaldırılmasına və Yəmən böhranının siyasi həllinə qəti iradəyə dair güclü siqnal verir. Xatibzadə qeyd edib ki, bu təşəbbüsün reallaşmasına ciddi yanaşma qəbul olunacağı təqdirdə Yəmən bu müharibənin dayandırılmasına yol aça biləcək. "Ümid edirik ki, müqəddəs Ramazan ayı ərəfəsində biz Yəməndə münaqişənin dayandırılmasını və milli barışığı görəcəyik, humanitar məsələlərə prioritet diqqət yetirərək əsirlərin dəyişdirilməsinə kömək edəcəyik", - deyə iranlı diplomat bildirib.

Xatırladaq ki, 9 ərəb ölkəsindən ibarət qrupa rəhbərlik edən Səudiyyə Ərəbistanı Yəmənə ölkənin keçmiş prezidentinə hakimiyyəti geri qaytarmaq və inqilabçı qüvvələrin hakimiyyətə gəlməsinə mane olmaq üçün Yəməndə hərbi əməliyyatlar keçirir.

### Münaqişə tərəfləri 2 ay müddətinə hərbi əməliyyatları dayandırır

Son məlumata görə, Hans Qrundberq bildirib ki, Yəməndəki münaqişə tərəfləri iki ay müddətinə hərbi əməliyyatların dayandırılmasına razılıq verib.

"Bildirmək istərdim ki, münaqişə tərəfləri 2 aprel saat 19:00-da qüvvəyə minəcək iki aylıq atəşkəs barədə Birləşmiş Millətlər Təşkilatının təklifinə müsbət reaksiya veriblər" - Qrundberqin dəftərxanasının saytında dərc olunmuş bəyanatda deyilir.

Münaqişə tərəfləri Yəmən ərazisində bütün hücumları - hava, yerüstü və dəniz əməliyyatlarını dayandırmağa razılaşıblar. Bundan başqa, onlar Hodeyda limanlarına yanacaq daşıyan gəmilərin girişinə və Səna aeroportuna kommersiya reyslərinə razılıq veriblər. Grundberg həmçinin qeyd edib ki, yaxın zamanlarda tərəflər Təizdə və Yəmənin digər əyalətlərində yolların açılmasını müzakirə edəcəklər.

Bəyanatda bildirilir ki, barışıq iki aylıq müddət bitdikdən sonra tərəflərin razılığı ilə uzadıla bilər.

***Rizvan HİLALOĞLU,***
***"Azərbaycan"***








BAŞ REDAKTOR
**Bəxtiyar SADIQOV**

**Ünvan**



*AZ 1073, Bakı şəhəri, Mətbuat prospekti, 529-cu məhəllə, IV mərtəbə*
*e-mail:*
secretary@azerbaijan-news.az
az.reklam@mail.ru
azerbaijan-news@mail.ru
www.azerbaijan-news.az

**Telefonlar**

Qəbul otağı - 539-68-71,
Baş redaktor müavinləri - 538-86-86, 434-63-30, 539-72-39,
Məsul katib - 539-43-23,
Məsul katib müavinləri - 539-44-91,
Parlament və siyasət şöbəsi - 539-84-41, 539-21-00,
İqtisadiyyat şöbəsi - 538-42-32, 538-35-55,
Beynəlxalq həyat, idman və informasiya şöbəsi - 432-37-68,
Humanitar siyasət şöbəsi - 538-56-60, 539-63-82
İctimai əlaqələr şöbəsi - 539-49-20, 538-31-11,
Fotoillüstrasiya şöbəsi - 538-84-73,
Kompüter mərkəzi - 538-20-87,
Mühasibatlıq - 539-59-33

Qeydiyyat nömrəsi 1

"Azərbaycan" qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş, "Azərbaycan Nəşriyyatı" MMC-də çap edilmişdir

Rəsmi sənəd və çıxışlarda söylənilənlərlə bərabər, dərc üçün göndərilən digər yazılardakı fikirlər də Azərbaycan dövlətinin mənafeyinə uyğun gəlməlidir

Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

*Gündəlik qəzet*

Tiraj 5573
Sifariş 820
Qiyməti 40 qəpik